Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 286 (8013) ÇƏRŞƏNBƏ, 19 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEVDƏN ölkəmizin səhiyyə sisteminə çox böyük töhfə

## Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu əsaslı şəkildə yenidən qurulub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 18-də Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Oqtay Şirəliyev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bu binada 1934-cü ildə Bakı Şəhər Səhiyyə Şöbəsinin nəzdində Balneofizioterapiya İnstitutu yerləşib. İki il sonra isə bu institutun bazasında Azərbaycan Dövlət Kurortologiya və Fizioterapiya İnstitutu yaradılıb. 1988-ci ildə bu institut Naftalan şəhərindəki problem laboratoriyası ilə birləşdirilərək Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu adlandırılıb. 1999-cu ildə isə bu tibb müəssisəsinin adı profili və fəaliyyətinə uyğunlaşdırılaraq Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna dəyişdirilib.

Azərbaycanda bütün sanatoriya və kurort müəssisələrinin elmi cəhətdən əsaslandırılması, orada aparılan müalicə bu institut tərəfindən hazırlanmış elmi-metodiki tövsiyələr əsasında aparılır. İnstitutda konsultativ poliklinika, stasionar, diaqnostik tədqiqatlar və fiziki üsullarla müalicə şöbələri fəaliyyət göstərir. Tibb ocağının stasionar hissəsində terapiya, artrologiya və nevrologiya bölmələri olacaq. Diaqnostik tədqiqatlar bölməsində 3 laboratoriya yaradılıb. Kliniki-immunologiya, biokimyəvi və kliniki neyrofiziologiya laboratoriyalarında ən müasir avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri qısa müddətə, həm də keyfiyyətlə aparmağa hərtərəfli imkan verir. Müalicəvi şöbələrə isə Naftalan nefti ilə müalicə, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin müalicəvi bədən tərbiyəsi kabineti aiddir. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutundakı oftalmoloq, stomatoloq, terapevt, USM, EKQ, balneoloji vanna və digər otaqlar da müasir tibbi avadanlıqla təchiz olunub.

İnstitutun elm bölməsində 43 elmi işçi, klinika bölməsində 43 həkim, 76 tibb bacısı və 118 nəfər digər işçi olmaqla, burada ümumilikdə 280 nəfər çalışır. İşçilərin 20 nəfəri fəlsəfə doktoru, 3 nəfəri tibb elmləri doktoru, 2 nəfəri professor, 1 nəfəri isə professor, əməkdar elm xadimi olmaqla AMEA-nın müxbir üzvüdür.




Son illərdə müasir tibb müəssisələrinin yaradılması, mövcud sağlamlıq ocaqlarının yüksək səviyyədə yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra edilən layihələrin mühüm tərkib hissəsidir. Səhiyyə sistemində aparılan ardıcıl islahatlar nəticəsində bu gün bu sahə yeni, müasir mərhələyə qədəm qoyub. Bu cür müasir səhiyyə ocaqlarının yaradılması, ilk növbədə, vətəndaşların sağlamlığının qorunması və bərpası, onların müayinə-müalicə işini yüksək səviyyədə qurmaq üçün atılan addımlardandır.

Sonra dövlət başçısı müəssisənin kollektivi ilə görüşdü.

Görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Bu gün biz Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu münasibətlə institutun kollektivini ürəkdən təbrik edirəm.

*Ardı 2-ci səh.*



# 3 korpus, 18 mindən artıq eksponat

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan milli incəsənət muzeyində oldular**

Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldular.

Mədəniyyət naziri Əbülfəs Qarayev dövlət başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verdi.

Qeyd edildi ki, Azərbaycan Milli İncəsənət Muzeyi XIX əsrdə inşa edilən iki yanaşı tarixi binada yerləşir. 1891-1893-cü illərdə Bakının baş memarı Nikolay fon der Nonne tərəfindən inşa edilən binada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar yerləşib. 1936-cı ildə əsası qoyulan İncəsənət Muzeyi 1951-ci ildən bu binada fəaliyyətini davam etdirib. Burada çox sayda qiymətli sənət əsərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurətini yaradıb. Əvvəllər burada belə genişmiqyaslı təmir işləri aparılmayıb. Prezident İlham Əliyevin sərəncamı ilə muzeydə əsaslı təmir və yenidənqurma işləri görülüb. "Mariinski Qadın Gimnaziyası" adlanan birinci korpus 2009-cu ilin sentyabrında istifadəyə verilib.



2014-2018-ci illərdə isə muzeyin "De Burun malikanəsi" adlanan korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə əsaslı təmir işləri həyata keçirilib. Bərpa-təmir işlərinə başlamazdan əvvəl muzey binasında xüsusi tədqiqat aparılıb. Binanın fiziki və texniki vəziyyəti öyrənilib. Ölkə əhəmiyyətli bu memarlıq abidəsinin tavan və divarlarında mövcud yapma rəsm bəzək və digər işlər ilkin vəziyyətə gətirilib. Memarlıq və bəzək elementləri təmizlənib, bərkitmə işləri yerinə yetirilib. Uzun illər ərzində cari təmir işləri aparmaqla tavan və divarlarda yeddi qat üst-üstə vurulan boya xüsusi texnologiya ilə təmizlənərək birinci rəng qatı müəyyən edilib. Əsas giriş qapıları və bir çox daxili qapılar təmizlənərək bərpa olunub. Milli İncəsənət Muzeyində yeni yaradılan şərait sərgi zallarında yerləşdirilən əsərlərin bütün təsiredici amillərdən - nəmişlik, temperatur, ultra şüalar və digər amillərdən qorunmasını və təhlükəsizliyini təmin edir, bununla bərabər, muzeyə gələn insanların rahatlığına, eyni zamanda, baxdıqları əsərlərdən zövq almalarına şərait yaradır.

*Ardı 2-ci səh.*

### Milli Məclisin iclasında

## Avropa Parlamentindən Azərbaycana böyük dəstək

### Beynəlxalq təşkilatın qəbul etdiyi son qətnamə Prezident İlham Əliyevin xarici diplomatiyasının növbəti uğuru və məqsədyönlü, qətiyyətli siyasətin təntənəsidir

Milli Məclisin dünənki plenar iclası Avropa Parlamentinin 2018-ci ilin son iclasında qəbul etdiyi qətnamənin müzakirəsi ilə öz işinə başladı. Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev dekabrın 11-12-də Avropa Parlamentində keçirilən ilin son iclaslarından və qəbul edilən qətnamənin məzmunundan söz açdı.

### Erməni lobbisinə ağır zərbə

Bildirildi ki, Avropa İttifaqının 140-dan çox nümayəndəsinin iştirak etdiyi mərasimdə öncə Azərbaycan Xalq Cümhuriyyəti haqqında qonaqlara dəyərli məlumatlar verilib. Sonra Avropa Parlamentinin (AP) plenar sessiyası keçirilib və Avropa İttifaqının Xarici Fəaliyyət və Təhlükəsizlik siyasətinə dair illik hesabatı müzakirə edilib. Yekunda isə AP-nin qətnaməsi qəbul edilib.

Sənəddə bütün "Şərq tərəfdaşlığı ölkələri"nin, o cümlədən, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin tanındığı öz əksini tapıb. Qətnamədə Avropa İttifaqının və quruma üzv olan dövlətlərin regional münaqişələrə ikili yanaşmasını qadağan edən maddələr də yer alıb.

*Ardı 4-cü səh.*

Dünyada ölkələrin inkişaf göstəriciləri bir sıra parametrlərlə ölçülür. Onlardan biri infrastrukturun inkişafıdır. Son vaxtlar görülən tədbirlər sayəsində Azərbaycan dünyanın bu sahədə də inkişaf etmiş ölkələri sırasındadır. Son faktlardan biri: Dünya İqtisadi Forumunun reytinq cədvəlində yol infrastrukturunun inkişafına görə Azərbaycan dünyada 36-cı yerdədir.



## Ləki-Qəbələ dəmir yolu bölgənin turizm imkanlarını genişləndirməklə bərabər, iqtisadi inkişafını da sürətləndirəcək

137 ölkə arasında 36-cı, MDB məkanında isə birinci olmaq böyük nailiyyətdir.

Dövlət başçısı 11 dekabr 2018-ci ildə sözügedən sahə üzrə daha bir sərəncam imzalayıb. "Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə bağlı tədbirlər haqqında" olan bu sərəncam ölkədə həm dəmir yolu nəqliyyatının, həm də turizm sektorunun inkişafına hədəflənib. Sərəncamda deyilir ki, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması, digər sahələrdən gələn gəlirlərin artırılması, qeyri-neft sektorunun sürətli inkişafı Azərbaycanda aparılan iqtisadi islahatların əsas istiqamətlərindəndir: "Qeyri-neft sektorunun iqtisadi cəhətdən ən sərfəli sahələrindən biri hesab edilən turizmin inkişafı ilə bağlı son illər həyata keçirilən tədbirlər nəticəsində bu sahədə ciddi nailiyyətlər əldə edilmiş, o cümlədən turizm obyektlərinin sayı çoxalmış, xidmət sahəsi yüksəlmiş, yerli əhalinin milli turizmə marağı, eləcə də ölkəyə səfər edən turistlərin sayı xeyli artmışdır".

Bu baxımdan ölkənin əsas turizm mərkəzlərindən olan Qəbələ şəhərinə və əks istiqamətdə dəmir yolu ilə sərnişindaşımaların həyata keçirilməsi üçün Ağdaş rayonu ərazisində yerləşən Ləki stansiyasının yaxınlığından uzunluğu 43 kilometr olan yeni dəmir yolu xəttinin tikintisi turizm infratstrukturunun yaxşılaşdırılmasına və turizm obyektlərinə yetərliyin təmin olunmasına xidmət edir.

Prezidentin qeyd olunan sərəncamı ilə Ləki-Qəbələ dəmir yolunun tikintisini həyata keçirmək məqsədilə dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitdən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə 30 milyon manat ayrılmışdır. Xatırladaq ki, Ləki-Qəbələ dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması və tikinti işlərinin həyata keçirilməsi "Azərbaycan Dəmir Yolları" QSC-yə həvalə olunub.

*Ardı 5-ci səh.*

## Eviniz abad olsun

### Azərbaycanda əhalinin bütün təbəqələrini əhatə edən sosial siyasət həyata keçirilir



Əhalinin sosial müdafiəsi hər zaman hər bir ölkə üçün prioritet sahə sayılıb. Bu səbəbdən bütün sivil dövlətlər imkan daxilində əhalinin sosial müdafiəsini diqqətdə saxlayır, lazım gəldikdə müvafiq tədbirlər görürlər. Azərbaycan da bu sahədə nəinki istisna deyil, hətta sözügedən istiqamətdə həyata keçirdiyi tədbirlərlə bir çox başqa ölkələrə nümunədir.

Dövlət başçısı tərəfindən dekabrın 17-də Sabunçu rayonunun ərazisində hərbçilərə növbəti dəfə 394 yeni mənzilin verilməsi belə nümunələrdən yalnız biridir.

Prezident İlham Əliyev tədbirdə çıxış edərək hərbçilərin sosial müdafiəsinin daim dövlətin diqqətində olduğunu bildirərək demişdir: "Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq fərman imzalanmışdır.

*Ardı 6-cı səh.*

# İLHAM ƏLİYEVDƏN ölkəmizin səhiyyə sisteminə çox böyük töhfə

*Əvvəli 1-ci səh.*





Çünki bu institutun Azərbaycanda xüsusi yeri vardır. Təxminən bir əsrə bərabər ömrü olan bu bərpa mərkəzinin yenidənqurmadan sonra indi ikinci həyatı başlayır. Mən indi buradakı stendlərdə binanın əvvəlki vəziyyəti, tikinti zamanı çəkilmiş şəkilləri ilə tanış oldum. Onlar çox böyük maraq doğurur. Hələ 1925-ci ildə institutun tikintisi ilə bağlı müvafiq göstəriş verilmişdir. Bu institut 100 ilə yaxın müddət ərzində Azərbaycan sakinlərinə xidmət göstərmişdir. Siz - burada işləyənlər yaxşı bilirsiniz ki, bu institutun ölkəmizin səhiyyə sistemində xüsusi yeri var. Bilirəm, təmir zamanı vətəndaşlar gözləyirdilər ki, bu institut tezliklə açılsın və onun imkanlarından istifadə olunsun.

Əlbəttə ki, bu gün burada yaradılan müasir şərait ən yüksək standartlara cavab verir. Həm təmir-tikinti işləri çox böyük peşəkarlıqla, zövqlə aparılıb, həm də burada quraşdırılan müasir avadanlıq, əlbəttə, xəstələrə ən yüksək səviyyəli xidmət göstərəcəkdir. Bu gün öz sağlamlığını bərpa etmək istəyənlər mütləq buraya gəlib şəfa tapacaqlar.

Bu institutun binası həm də çox gözəl memarlıq abidəsidir. Binanın həm xarici görünüşü, həm daxili dizaynı göz oxşayır. İnstitutun sahəsi də çox böyükdür, 14 min 600 kvadratmetr sahədə yerləşir. Yenə də demək istəyirəm ki, burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Bu, bir daha ölkəmizin səhiyyə sahəsinə göstərdiyi diqqətin təzahürüdür. Bu, bir daha onu göstərir ki, insanların sağlamlığı bizim üçün ən əsas vəzifədir. Təsadüfi deyil ki, son 15 il ərzində təqribən 650-yə yaxın tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib, bax, bu səviyyədə təmir olunub. Bu gün ölkəmizin istənilən yerində yüksəkkeyfiyyətli tibbi xidmət almaq mümkündür. Demək olar ki, mərkəzi şəhər və rayon xəstəxanalarının tikintisi və əsaslı təmiri prosesi başa çatır, bir neçə xəstəxana öz açılışını gözləyir. Əminəm ki, yaxın 1-2 ildə bu məsələ də öz həllini tapacaq. Bu, ölkəmizin səhiyyə sisteminə verilən çox böyük töhfədir. Çünki bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir. Əgər buna nail olmasaydıq, əgər səhiyyə sahəsinin maddi-texniki bazasını yaratmasaydıq, biz bu gün apardığımız siyasəti apara bilməzdik. Çünki bu gün sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsindəki islahatlar, qoyulan investisiyalar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, Azərbaycanda yüksək səviyyəli tibbi xidmət ala bilsinlər. Bildiyiniz kimi, son illərdə bütün ölkə üzrə 5 milyondan çox Azərbaycan vətəndaşı hər il pulsuz tibbi müayinədən keçir və aşkar edilən xəstəliklər müalicə olunur. Azərbaycan nadir ölkələrdəndir ki, belə genişmiqyaslı sosial layihə icra edilir. Mən dəfələrlə bildirmişdim ki, Azərbaycan vətəndaşları ildə ən azı bir dəfə tibbi müayinədən keçsinlər. Şadam ki, bu çağırışlar həyatda öz əksini tapır. Xüsusilə nəzərə alsaq ki, hər bir yerdə müayinədən keçmək üçün şərait var və 5 milyondan çox insanın bu imkanlardan istifadə etməsi bizim siyasətimizin qələbəsidir.



Ölkəmizdə bu sahədə aparılan işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. BMT-nin Minilliyin İnkişaf Məqsədləri Proqramı çərçivəsində, o cümlədən səhiyyə sahəsində aparılan işlər yüksək qiymətə layiqdir. Həmçinin Dünya Səhiyyə Təşkilatı bizim işimizi yüksək qiymətləndirir. Bir sözlə, bu sahədə aparılan islahatlar və dövlət tərəfindən qoyulan vəsait öz nəticəsini verir. Nəticə də ondan ibarətdir ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, gənc nəsil sağlam həyat tərzi sürsün, pis vərdişlərdən uzaq olsun. Sağlamlığı təmin və bərpa etmək üçün Azərbaycanda bütün şərait var. Bir daha demək istəyirəm ki, bu institutun yenidən fəaliyyətə başlaması bu sahədə atılan çox önəmli addımdır.

Mən sizi bu gözəl hadisə, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram, sağ olun.

* * *

Səhiyyə sisteminin müasirləşdirilməsi istiqamətində görülən işlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən səhiyyə naziri Oqtay ŞİRƏLİYEV dedi:

- Möhtərəm cənab Prezident, çox hörmətli Mehriban xanım.

Siz hər Yeni il ərəfəsində həmişə bir tibb müəssisəsi açırsınız. Çox sağ olun, bu gün də bu açılışda iştirak edirsiniz. Səhiyyə ilə bağlı xoş sözlərinizə görə Sizə dərin hörmət və ehtiramımızı bildirmək istəyirik.

Cənab Prezident, Siz səhiyyənin bütün problemlərinə, ümumiyyətlə, səhiyyəyə həmişə diqqət və qayğı ilə yanaşmısınız. Bu da o deməkdir ki, insanların sağlamlığı, gənc nəslin sağlam böyüməsi Sizin üçün ən vacib meyarlardan biridir. Bu, bizim dövlətin siyasətidir, bu, Sizin siyasətinizdir. O siyasətin göstəriciləri yüzlərlə yeni xəstəxana, tibb mərkəzi, ən müasir avadanlıq, təhsil üçün ən qabaqcıl xarici klinikalara göndərilən tələbələr, tibb işçiləri, mütəxəssislərdir. Bütün bunlara görə biz Sizə çox dərin minnətdarıq.

Cənab Prezident, Siz də, Mehriban xanım da tibb ictimaiyyətinin nümayəndələri ilə görüşəndə həmişə xüsusi vurğulayırsınız ki, həkimlik xüsusi sənətdir, həkim gərək bilikdən, bacarıqdan başqa, həm də şəfqət və mərhəmət sahibi olsun. Siz həmişə həkimlərə, tibb işçilərinə çox yüksək qiymət vermisiniz. Çalışacağıq ki, biz bu yüksək qiymətə layiq olaq. Çox sağ olun, cənab Prezident.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# 3 korpus, 18 mindən artıq eksponat

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan milli incəsənət muzeyində oldular





*Əvvəli 1-ci səh.*

Binanın memarlığı və qədimliyi saxlanılmaqla həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib. Yenidənqurma və əsaslı təmir işləri ilə yanaşı, binada ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. On səkkiz mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyində rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri nümayiş olunur. Üçüncü korpusda isə 2 mindən çox eksponat saxlanılır.

Bildirildi ki, Azərbaycan Milli İncəsənət Muzeyinin mövcud binaları arasında mərkəzləşdirilmiş giriş yaratmaq üçün 2013-cü ildə açılışı olan keçid korpusu da var. Bina memarlığın həm ampir, həm də barokko üslublarının istifadə edildiyi tarixi memarlıq abidəsidir. Xüsusi sifariş edilmiş güzgülər, çıraqlar və sobalar bu məkana gözəllik verir.





Muzeydə dünya incəsənəti nümunələri də nümayiş etdirilir. Ekspozisiya planına əsasən kolleksiyanı Qərbi Avropa, o cümlədən İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran və Hindistan da daxil olmaqla Şərq incəsənəti təşkil edir. İlk dəfə olaraq yeni ekspozisiyada qədim dünya incəsənəti də təqdim olunur: buraya qədim Misir, qədim Yunanıstan, qədim Roma və qədim İran incəsənətləri daxildir. Bununla yanaşı, ilk dəfə olaraq Fransa zallarında fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, avanqard çini məmulat və əsərləri də seyr etmək imkanı olacaq. Dünyanın istənilən muzeyi burada təqdim olunan əsərlərlə fəxr edə bilər.

Binada aparılan yenidənqurma və əsaslı təmir işləri, nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzuladılar.

# Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Bolqarıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Bolqarıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2018-ci il oktyabrın 31-də Sofiya şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Bolqarıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 18 dekabr 2018-ci il

# G.B.İslamovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Gülağa Bayram oğlu İslamov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, №7, maddə 602, № 8, maddə 695, №12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501; 2015, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 67-ci maddənin birinci hissəsində “məhkəmənin təqdimatı əsasında və ya” sözləri “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, habelə” sözləri ilə əvəz edilsin.

2. 167-ci maddənin dördüncü hissəsində “icrası barədə sərəncamı hərbi hissəyə daxil olduğu andan” sözləri “surəti icra olunması üçün hərbi hissəyə daxil olduğu vaxtdan, ali hərbi rütbədən məhrum etmə hallarında isə bu barədə müvafiq icra hakimiyyəti orqanının sərəncamı qüvvəyə mindiyi gündən” sözləri ilə əvəz edilsin.

3. 182-ci maddənin birinci hissəsinin birinci cümləsində “məhkəmənin hökmü ilə” sözləri “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# “Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1344-VQD nömrəli Qanununun tətbiqi və “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1344-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin 167-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

4. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176; 2002, № 8, maddə 478; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 11, maddə 1117; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 845; 2015, № 5, maddə 541; 2017, № 3, maddə 366, № 12 (I kitab), maddə 2277) 2-ci hissəsinin ikinci abzasında “165-ci maddəsinin axırıncı hissəsində,” sözlərindən sonra “167-ci maddəsinin dördüncü hissəsində,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 2, maddə 40; 1994, № 18, maddə 246; 1995, № 22, maddə 359; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 241; 2004, № 7, maddə 505; 2006, № 6, maddə 478; 2007, № 2, maddə 74; 2015, № 3, maddə 256; 2018, № 4, maddə 648) aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Çoxmənzilli binanın idarə edilməsi Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 141-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.”.

2. 14-cü maddənin ikinci, üçüncü və dördüncü hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1376-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1376-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1515) aşağıdakı dəyişikliklər edilsin:

1. 10.1-ci maddəsində “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda” sözləri “bu qanunun 10.1-1-ci maddəsində” sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 10.1-1-ci və 10.3-cü maddələr əlavə edilsin:

“10.1-1. Deputat xidməti vəzifələrinin icrası ilə əlaqədar hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan hədiyyə qəbul edə bilməz, habelə bu cür hədiyyəni xidməti vəzifələrinin icrası ilə əlaqədar hər hansı fiziki və ya hüquqi şəxsə təklif edə bilməz.”;

“10.3. Deputata qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, deputat onlardan imtina etməlidir. Maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər deputata ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə Milli Məclisin İntizam komissiyasına məlumat verməli və bu qanunun 10.1-1-ci maddəsində nəzərdə tutulmuş məbləğdən yuxarı olan hədiyyələri Milli Məclisin Aparatına akt üzrə təhvil verməlidir.”.

3. 11-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“11.1. Deputat səlahiyyət müddətində maraqlar toqquşmasına yol verməməli, öz səlahiyyətlərindən maraqları üçün istifadə etməməli, maraqlarının onun deputatlıq fəaliyyətinə təsir göstərməsinə şərait yaratmamalı, həmçinin səlahiyyət müddətində deputatlıq səlahiyyəti müddətindən sonrakı dövrlərdə digər sahədəki fəaliyyətinə dəstək yaratmaq məqsədi ilə hər hansı bir hərəkət (hərəkətsizlik) etməməlidir. Deputat hər hansı maraqlı tərəflə ünsiyyət zamanı şəffaflıq və dürüstlük prinsiplərini rəhbər tutmalıdır.

11.2. Deputatın xidməti vəzifələrinin icrası ilə maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda, o, həmin maraqlar barəsində Milli Məclisin İntizam komissiyasına məlumat verməli və İntizam komissiyasının rəyini öyrənməlidir. Deputat, Milli Məclisin İntizam komissiyasının rəyinə müvafiq olaraq, onun marağının yarandığı məsələ ilə bağlı çıxış etməkdən və ya səsvermədə iştirak etməkdən çəkinməlidir. Deputat maraqlar toqquşmasının həlli zamanı ictimai mənafeni həmişə öz maraqlarından üstün tutmalıdır. Milli Məclisin İntizam komissiyasının maraqlar toqquşması barədə rəyi Milli Məclisin rəsmi internet səhifəsində dərc edilir.

11.3. Bu qanunun 11.2-ci maddəsində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müəyyən edilən tələblərdən asılı olmayaraq, deputat Milli Məclisin, onun komitə və komissiyasının iclası və ya ictimai müzakirə zamanı çıxışından əvvəl müzakirə edilən məsələ ilə bağlı yarana biləcək marağını açıqlamalı, bu barədə iclas sədrinə şifahi formada məlumat verməlidir. Deputatın maraqlar toqquşması ilə bağlı açıqlaması Milli Məclisin iclaslarının stenoqramına daxil edilir və Milli Məclisin rəsmi internet səhifəsində dərc edilir.

11.4. Deputat normayaratma prosesində hər hansı maraqlı tərəf, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələri və ya digər şəxslərlə keçirdiyi görüşü, həmin görüşün mövzusunu və bununla bağlı onun tərəfindən göstərilən dəstək barədə məlumatları ictimaiyyətə açıqlamalıdır. Bu məlumatlar protokollaşdırılaraq Milli Məclisin Aparatında saxlanılır. Belə görüşlər zamanı təqdim olunmuş rəy və təkliflər Milli Məclisin rəsmi internet səhifəsində dərc edilir.

Qeyd: Bu maddədə “maraqlar toqquşması” dedikdə deputatın səlahiyyətlərinin icrası çərçivəsində özünün və ya yaxın qohumlarının əldə edə biləcəyi maddi və sair nemətlər, imtiyazlar və güzəştlər, habelə onun mənafeyinə toxunan, yaxud toxuna bilən digər maraqlarının həmin deputatın səlahiyyətlərinin obyektiv və qərəzsiz icrasına təsir göstərdiyi və ya göstərə biləcəyi vəziyyət başa düşülür.”.

4. 12-ci maddədən “şəxsi” sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1338-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1338-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 70, № 11, maddə 1046; 2009, № 6, maddə 397, № 12, maddələr 948, 949; 2010, № 7, maddə 600; 2011, № 4, maddə 259; 2013, № 4, maddə 356; 2015, № 2, maddə 84; № 4, maddə 365; 2016, № 11, maddə 1787; 2017, № 1, maddə 10, № 5, maddə 746, № 6, maddələr 1023, 1038; 2018, № 3, maddə 374, № 6, maddə 1181) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.0.4-cü maddəyə “keyfiyyətinə” sözündən sonra “, effektivliyinə” sözü əlavə edilsin.

2. 3.0.5-ci maddədə “səmərəli” sözü “effektiv” sözü ilə əvəz edilsin.

3. 14-1.2-ci maddənin ikinci cümləsinə “tərkibli” sözündən sonra “və eyni dozalı” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1373-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1373-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765) 1-ci maddəsinin “valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər” bəndində “18 yaşınadək hər iki valideynini itirmiş, habelə hər iki valideyninin” sözləri “valideynlərini itirmiş, habelə valideyn” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1369-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1369-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# Avropa Parlamentindən Azərbaycana böyük dəstək

## Beynəlxalq təşkilatın qəbul etdiyi son qətnamə Prezident İlham Əliyevin xarici diplomatiyasının növbəti uğuru və məqsədyönlü, qətiyyətli siyasətin təntənəsidir





*Əvvəli 1-ci səh.*

Erməni lobbisinin maraqlarına xidmət edən bəzi parlamentarilərin cəhdlərinə baxmayaraq, qətnamə böyük səs çoxluğu ilə təsdiqlənib.

Qətnamədə Azəbaycanın maraqlarına tam uyğun gələn bəndlər yer alıb. Belə ki, sözügedən sənəd Avropa İttifaqı "Şərq tərəfdaşlığı ölkələri"ndəki dondurulmuş münaqişələrə vahid mövqedən yanaşma tələb edir.

Deputat qeyd etdi ki, qətnamənin qəbulunda bu dəfə xalqların öz müqəddəratını təyin etmə prinsipindən söz açılmayıb. Erməni lobbisinin səylərinə baxmayaraq, xalqların öz müqəddəratını təyin etmə məsələsi məruzəyə salınmayıb.

### 2019-cu il Dağlıq Qarabağın azad edilməsi ili olmalıdır

Müzakirələr zamanı deputatlardan Zahid Oruc, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxış edərək bildirdilər ki, builki hesabatda "Şərq tərəfdaşlığı ölkələri"ndə dondurulmuş münaqişələrin həlli üçün beynəlxalq hüquq normaları əsas götürülüb.

Qətnamənin qəbul edilməsi onu göstərir ki, Avropada artıq Azərbaycanın haqq səsini eşidirlər. Bu, Azərbaycan xarici siyasət idarəsinin və Prezident İlham Əliyevin uzaqgörən, qətiyyətli siyasətinin nəticəsidir.

Komitə sədri Səməd Seyidov dedi ki, Avropa Parlamentində Azərbaycanla bağlı atılan addımlar, sözün əsl mənasında, vacib və gözlənilən nəticə idi. Çünki Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsi bu gün Avropanın ən böyük, nüfuzlu, təsir etmə imkanına malik olan, Avropa üçün istiqaməti müəyyən edən Avropa Parlamentinin sənədində birmənalı şəkildə öz əksini tapıb: "İki il bundan öncə Avropa Parlamenti Azərbaycana qarşı ağlasığmaz dərəcədə mənfi qətnamə qəbul etmişdi. Lakin Azərbaycan iqtidarının, parlamentinin mütəşəkkil, ardıcıl, məntiqli işləri nəticəsində belə gözəl nəticə əldə edildi. Birgə görülən iş mütləq şəkildə öz bəhrəsini verməli idi".

Deputat Qüdrət Həsənquliyev isə hesab etdi ki, Avropa Parlamenti tərəfindən belə bir qətnamənin qəbul edilməsi Azərbaycan üçün böyük uğurdur: "İlk dəfədir ki, Avropa Parlamenti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və münaqişənin ərazi bütövlüyü çərçivəsində həllini vacib sayıb. Bu, ikinci diplomatik qələbədir. Artıq Ermənistan təklənib, hətta öz müttəfiqlərini itirir. Hesab edirəm ki, Azərbaycan Ermənistana təzyiqlərini artırmalıdır. 2019-cu il Dağlıq Qarabağın azad edilməsi ili olmalıdır".

Spiker Oqtay Əsədov isə vurğuladı ki, bunların səbəbi Prezident İlham Əliyevin ortaya qoyduğu prinsipial mövqedir. Dövlət başçısının apardığı siyasət artıq bəhrəsini verməkdədir. Bu, məqsədyönlü, sistemli, qətiyyətli siyasətin təntənəsidir.

### Azərbaycanın uğurları artdıqca, ona hücumlar da artır

"Azərbaycanın uğurları artdıqca, ölkəmizi sevməyən qüvvələr, erməni lobbisi ilə maliyyələşən dairələr respublikamız haqqında mənfi fikirlər formalaşdırmağa başlayırlar. Biz addımımızı geri qoyduqca, onlar bir az da üzərimizə gəlirlər. Kanallarında, saytlarında bu gün dövlət quruculuğunda, ölkənin inkişafında, təhlükəsizliyin, ictimai-siyasi sabitliyin qorunmasında xüsusi rolu olan şəxslər haqqında təhqiramiz fikirlər söyləyirlər. Biz niyə susmalıyıq?"

Bunu isə İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov dedi. Onun sözlərinə görə, milli azadlıq hərəkatında iştirak etməyən, döyüşlərə qatılmayan, xalqın taleyüklü məsələlərində fəaliyyəti olmayan şəxsin deputatları təhqir etməsi yolverilməzdir.

Deputat Fəzail İbrahimli isə son zamanlar sosial şəbəkələrdə Milli Qəhrəman Mübariz İbrahimov haqqında arzuolunmaz kampaniyaya başlayanlara irad tutdu. Bildirdi ki, bu, milli ruhumuza, milli qəhrəmanımıza, dövlətçiliyimizə hücumdur. Bu, həmin şəxsin "dayıları"nın diktəsidir.

Spiker Oqtay Əsədov da mövzuya münasibət bildirdi: "Xalq həmin insanın cavabını verib. İnsanların bu məsələyə göstərdiyi hiddətin şahidi olduq. Həmin şəxs heç psixoloq da deyil, hələ bilinmir oxuyub psixoloq olacaq, ya yox. Bu insan heç universitet də bitirməyib, onun psixoloq olmasına hələ illər lazımdır. Onun cavabını xalqımız verdi".

### Yeni medal təsis edildi

Çıxışlardan sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. İlk olaraq "Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələri təsdiqləndi.

Deputatlar həmçinin "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə üçüncü oxunuşda müsbət münasibət bildirdilər. Həmçinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi də səsverməyə çıxarılaraq qəbul edildi.

### Gerbin ayaq basılan yerlərə vurulması qadağandır

Parlament həmçinin Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" (üçüncü oxunuş), Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Avtomobil nəqliyyatı haqqında", "Sığorta fəaliyyəti haqqında"(üçüncü oxunuş) qanunlarda dəyişiklik edilməsi barədə layihələri də təsdiqlədi.

İclasda birinci oxunuşda müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun layihələri ilə bağlı geniş müzakirələr aparıldı.

İlk sənəd 9 maddədən ibarətdir. Azərbaycanın Dövlət Gerbinin istifadəsi qaydalarını müəyyən edir. Qanun layihəsi ilə Azərbaycanın Dövlət Gerbinin istifadəsinə dair yeni məhdudiyyətlər müəyyənləşib. Layihəyə əsasən, Dövlət Gerbi Konstitusiya qanununa uyğun təsvir edilməli və nəzərdə tutulan qaydada istifadə edilməlidir.

Dövlət Gerbinin oturulan, ayaq basılan və natəmiz yerlərə vurulması və ya həmin yerlərdə təsvir edilməsi qadağandır. Qanunun tələblərini pozan şəxslər İnzibati Xətalar Məcəlləsinə, Dövlət Gerbi barədə təhqiredici hərəkətlər edən şəxslər isə Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

### Himn çalınanda necə dayanmalıyıq?

İkinci layihə də 9 maddədən ibarətdir və Azərbaycan Dövlət Himninin ifa edilməsi, oxunması və dinlənilməsi qaydalarını müəyyən edir.

Vətəndaşlar üçün Dövlət Himninin ifa edilməsinə, oxunmasına və dinlənilməsinə dair tələblər mövcuddur. Himn nəzərdə tutulan qaydada ifa edilməli, dinlənilməli və oxunmalıdır.

Müzakirələr zamanı Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov təkliflə çıxış etdi: "Məlum məsələdir ki, himn ifa olunanda hamı ayağa durmalıdır. Ancaq himn çalınanda hərə bir cür dayanır. Bilirik ki, farağat vəziyyətində dayanmaq lazımdır. Amma bəziləri farağat, bəziləri isə əli ürəyinin üstündə dayanır. Bunlara aydınlıq gətirilməlidir".

Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

### Bəzi komitələrin səlahiyyətləri artırıldı

İclasda həmçinin "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də (birinci oxunuş) təsdiqləndi. Yeni dəyişikliyə əsasən, bundan sonra Milli Məclisin İnsan hüquqları komitəsi Ailə, qadın və uşaq məsələləri komitəsi ilə birlikdə gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının (Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) fəaliyyəti haqqında illik məlumata baxacaq və rəy verəcək.

Digər dəyişikliklə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi Hesablama Palatasının fəaliyyəti barədə illik hesabata baxacaq və rəy verəcək. Dəyişiklik layihəsi səsverməyə çıxarılaraq təsdiqləndi.

### Ümumi təhsil qaydalarında yeniliklər ediləcək

Gündəliyin sonuncu məsələsi - "Ümumi təhsil haqqında" qanun layihəsinin birinci oxunuşu ətrafında geniş müzakirələr aparıldı. Sənədi təqdim edən parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli bildirdi ki, 5 fəsil, 33 maddədən ibarət qanun layihəsi Azərbaycanda ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Qanun layihəsinin 12-ci (ümumi təhsil müəssisəsi) maddəsində bildirilir ki, ümumi təhsil müəssisəsində təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş geyim formaları tətbiq ediləcək.

Qanunun 13-cü (ümumi təhsilin təşkili) maddəsinə əsasən, ümumi təhsilin tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə (humanitar, texniki, təbiət və digər) təşkil edilir. Təmayül sinifləri şagirdlərinin sayı ən azı 15 nəfər olmaqla komplektləşdiriləcək. Hazırda bu rəqəm 20-dir.

Müzakirələr zamanı parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputat Qüdrət Həsənquliyev çıxış edərək bildirdilər ki, "Ümumi təhsil haqqında" qanun layihəsi ciddi və vacib sənəddir. Təhsil elə sahədir ki, bütün Azərbaycan vətəndaşları bu sistemlə bağlıdır. Ancaq orta təhsil sistemi nisbətən sadələşdirilməlidir. Siyavuş Novruzov hesab edir ki, orta məktəb şagirdlərinin dərs yükü çoxdur. Eyni zamanda ehtiyac olan ərazilərdə yeni məktəblər tikilməlidir. Qüdrət Həsənquliyevə görə, artıq Avropada iki növbəli tədris ləğv olunub. Əgər məktəb çatışmazlığı varsa, o zaman yeni məktəblər tikilməlidir. Bu məsələləri həll etmədən ciddi dəyişikliklərə nail olmaq qeyri-mümkündür.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edildi. Bununla da parlamentin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV, Fərman BAĞIROV (foto), "Azərbaycan"***

# Azərbaycanın irəli sürdüyü "İtkin düşmüş şəxslər" adlı qətnamə BMT Baş Assambleyasında qəbul edilib

Dekabrın 17-də BMT Baş Assambleyasının plenar iclasında Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə konsensusla qəbul edilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Qeyd edilib ki, 62 ölkə qətnaməyə həmmüəllif kimi qoşulub.

Azərbaycan tərəfindən iki ildən bir irəli sürülən qətnamənin əsas məqsədi dünyada silahlı münaqişələr şəraitində itkin düşmüş şəxslərin probleminə diqqətin daha da artırılmasından ibarətdir.

Qətnamədə dünyanın bir sıra yerlərində silahlı münaqişələrin və bunun nəticəsində itkin düşmüş şəxslərin sayının artması ilə bağlı dərin narahatlıq ifadə olunur. Qeyd edilir ki, itkin düşmüş şəxslər problemi onların ailələrinə böyük iztirablar gətirir və münaqişələrə son qoyulması sahəsində həyata keçirilən səylərə mənfi fəsadlar törətməkdə davam edir.

Qətnamə dövlətləri beynəlxalq humanitar hüququn müddəalarına hörmət və riayət etməyə, silahlı münaqişələr şəraitində itkin düşmə hallarının qarşısının alınması, itkin düşmüş şəxslərin axtarışı ilə bağlı bütün lazımi tədbirləri həyata keçirməyə, o cümlədən beynəlxalq öhdəliklərinə uyğun olaraq itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün əməkdaşlıq etməyə çağırır. Qətnamə itkin düşmüş şəxslərin ailələrinin əzizlərinin taleyi barədə məlumat əldə etmək hüququnu təsdiq edir. Qətnamə dövlətləri silahlı münaqişələr şəraitində itkin düşmüş uşaqların məsələsinə xüsusi olaraq diqqət yetirməyə çağırır.

Qətnamədə BMT baş katibinin Baş Assambleyanın 75-ci sessiyasına (2020) və BMT-nin İnsan Hüquqları Şurasının müvafiq sessiyasına onun icrasına dair praktiki tövsiyələrin də yer aldığı müfəssəl hesabat təqdim edilməsi çağırışı yer alır.

# *Polşanın "Ambasador" jurnalı:*
# "Azərbaycan Avropaya doğru"



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsi barədə Polşanın nüfuzlu "Ambasador" jurnalının 36-cı sayında polyak və ingilis dillərində "Azərbaycan Avropaya doğru" adlı material dərc edilib.

AZƏRTAC-ın xüsusi müxbirinin təqdim etdiyi materialda deyilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq "Cənub qaz dəhlizi"nin təməli qoyulub. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə davam etdirilib, 2018-ci il mayın 29-da Bakıda "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir.

1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılıb. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulub. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə 3,6 milyard dollar bonus ödəniləcək. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılıb. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib".

# Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakıda keçirilməsi ilə bağlı hazırlıq işləri davam edir



Dekabrın 18-də Nazirlər Kabinetində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində təşkil edilməsi ilə əlaqədar növbəti hazırlıq iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakıda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Prezidentinin sərəncamından irəli gələn və qarşıda duran məsələlər müzakirə edilib.

Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Təşkilat Komitəsinin sədri Əli Həsənov Azərbaycanda keçirilən bütün tədbirlərin həm təhlükəsizlik tələblərinə, həm də təşkilati tələblərə cavab verdiyini, Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın da yüksək səviyyədə keçiriləcəyini qeyd edib.

Əli Həsənov ölkəmizin narkotiklərlə mübarizə sahəsində prinsipial mövqe nümayiş etdirdiyini vurğulayıb.

Sonra Dövlət Gömrük Komitəsi sədrinin müavini İsmayıl Hüseynov konfransla əlaqədar komitə tərəfindən ciddi hazırlıq işlərinə başlanıldığını qeyd edib.

ABŞ-ın Ədliyyə Nazirliyi nəzdində Narkotiklərlə Mübarizə üzrə Administrasiyanın Orta Asiya üzrə regional direktoru Vilyam Varen konfransın beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

Sonda aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə ilin yekunlarına həsr olunan qəbul təşkil edilib





Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə dekabrın 18-də cari ilin yekunlarına həsr olunan qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, qəbulda çıxış edən xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın 2018-ci il ərzində həyata keçirdiyi xarici siyasət və bu istiqamətdə əldə olunan nailiyyətlər barədə danışıb. Nazir əsas diqqəti ölkəmizin xarici siyasətinin prioritet məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə ayırıb. O, ölkəmizin cari il ərzində davam etdirilən uğurlu xarici siyasətinin, o cümlədən həyata keçirilən yüksək səviyyəli səfərlərin, paytaxtımızda təşkil olunan beynəlxalq tədbirlərin, qəbul olunmuş mühüm sənədlərin və imzalanmış ikitərəfli razılaşmaların nəinki bölgəmizdə, həmçinin geniş beynəlxalq müstəvidə sülh və təhlükəsizliyin, davamlı inkişafın təmin olunmasına xidmət etdiyini deyib.

Nazir ikitərəfli münasibətlərin inkişafı istiqamətində diplomatik korpusun səylərini yüksək qiymətləndirib və onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Diplomatik korpusun adından duayen qismində Fələstin Dövlətinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim çıxış edib.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək Prezident İlham Əliyevin ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun rəhbərlərinə və həmin ölkələrin dövlət başçılarına təbriklərini çatdırıb.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Pekində Azərbaycan-Çin dostluq konserti olub








Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması və təbliği istiqamətində həyata keçirdiyi tədbirlərdən olan konsertin tamaşaçıları arasında Çin Xalq Respublikasının (ÇXR) rəsmiləri, o cümlədən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin, Kommunist Partiyasının, Xarici İşlər Nazirliyinin, Pekin xalq hökumətinin, digər dövlət qurumlarının məsul işçiləri olublar.

Konsertdən əvvəl çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkələr olduğunu qeyd edərək, xalqlarımız arasında əlaqələrin tarixi İpək Yolu dövründən başladığını deyib. Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvi hələ XII əsrdə Azərbaycan-Çin dostluğunu "Yeddi gözəl" poemasında vəsf etdiyi Çin gözəli obrazı ilə təsvir edib. Belə bir möhkəm özül üzərində qurulmuş Azərbaycan-Çin dostluğunun və əməkdaşlığının indiki mənzərəsi daha zəngin və rəngarəngdir.

Baş nazirin müavini Azərbaycanın sürətlə inkişaf edən və dünyada özünəməxsus yeri ilə seçilən Çinlə əlaqələrə xüsusi önəm verdiyini, əməkdaşlığın bütün istiqamətlər üzrə genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyev və ÇXR Sədri Si Cinpin arasındakı qarşılıqlı hörmət və etimada əsaslanan siyasi dialoq ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün geniş imkanlar yaradır.

Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsünü xüsusi vurğulayan Ə.Əhmədov deyib ki, ölkəmizin ilk gündən dəstəklədiyi, dövlətlər və xalqlar arasında iqtisadi, humanitar və mədəni əlaqələrin dərinləşməsini özündə ehtiva edən bu vacib təşəbbüs Azərbaycanı və Çini daha da yaxınlaşdırıb. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəsi ilə "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşmasına öz töhfəsini verən Azərbaycan iqtisadi iş birliyi ilə yanaşı, Çinlə humanitar sahədə də müxtəlif layihələr həyata keçirməkdə maraqlıdır.

Baş nazirin müavini Azərbaycan-Çin humanitar əlaqələrinin genişləndirilməsində və müxtəlif mədəni layihələrin reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəal rolundan söz açıb. Azərbaycanın qədim tarixini və zəngin mədəniyyətini dünyada layiqincə təbliğ edən Heydər Əliyev Fondunun Çində reallaşdırdığı tədbirlər xalqlarımızın bir-birinin mədəni sərvətləri ilə daha yaxından tanış olmalarına imkan yaradacaq.

Qədim İpək Yolunun ölkələrimiz arasında dostluq əlaqələrinin təməlini qoyduğunu qeyd edən Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon zəngin mədəniyyətə malik xalqlarımızın uzaq məsafədə yaşamasına baxmayaraq, bu yol vasitəsilə bir-birini tanımağa başladığını söyləyib. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 26 il ərzində qarşılıqlı anlaşma və etimad durmadan dərinləşib, müxtəlif sahələrdə dostluğa əsaslanan əməkdaşlıq inkişaf edib.

Azərbaycanın "Bir kəmər, bir yol" strategiyası üzərində yerləşən vacib bir ölkə olduğunu diqqətə çatdıran Şao Xon ötən müddətdə Azərbaycanın bu təşəbbüsün həyata keçməsində fəal iştirak etdiyini deyib.

"İnsanlar arasındakı dostluq ölkələr arasındakı dostluğun əsasını təşkil edir" fikrini vurğulayan Çin rəsmisi "Bir kəmər, bir yol" təşəbbüsünün inkişafı ilə birgə xalqlarımız arasındakı təmasların da gündən-günə çoxaldığını, hər iki tərəfdən müxtəlif sahələrdə əməkdaşlığın daha fəallaşdığını bildirib.

Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Azərbaycan musiqilərinin dünyada çox məşhur olduğunu diqqətə çatdırıb. O, dostluq konsertinin Çin xalqının Azərbaycanın milli mədəniyyətini daha yaxından tanıması üçün gözəl bir imkan olduğunu deyib. "Musiqi bəşəriyyətin ümumi dilidir. Ümid edirəm ki, bu konsert Azərbaycanın qədim mədəniyyətinin sədasını bizə çatdıracaq, iki xalq arasındakı dostluq və sevgi körpüsünü daha da möhkəm edəcək", - deyə o əlavə edib.

Sonra səhnə Azərbaycan incəsənət ustalarının ixtiyarına verilib. Pekinin ən böyük konsert sarayı olan İfaçılıq Sənəti Milli Mərkəzində təşkil olunan konsertdə Fuad İbrahimovun dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və xalq artistləri Murad Hüseynov, Samir Cəfərov, Ənvər Sadıqov, əməkdar artist Sahib Paşazadə, digər tanınmış incəsənət ustalarının ifasında Üzeyir Hacıbəylinin ("Arazbarı", "Sevgili canan"), Fikrət Əmirovun ("Sevil" operasından Balaşın ariyası, "Azərbaycan elləri", "Məhəbbət rəqsi"), Qara Qarayevin ("İldırımlı yollarla" baletindən parça), Niyazinin ("Arzu"), Cahangir Cahangirovun ("Qarabağ", "Ay qız"), Aqşin Əlizadənin ("Cəngi"), Tofiq Quliyevin ("Bakı haqqında mahnı", "Qaytağı", film musiqilərindən poppuri), Həsən Rzayevin ("Çahargah" rapsodiyası), Faiq Sücəddinovun ("Qaytağı"), Müslüm Maqomayevin ("Azərbaycan") əsərləri, xalq mahnıları, habelə Avropa bəstəkarlarının əsərləri ifa olunub. Tamaşaçılar Azərbaycan incəsənət ustalarının ifasını sürəkli alqışlarla qarşılayıblar. Çin ənənəvi musiqi parçalarının tarda, habelə aşıq ifasında təqdimatı isə salona toplaşanlar üçün əsl sürpriz olub.

Qeyd edək ki, konsert Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində baş tutub. Ötən ilin noyabrında Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında dostluq və əməkdaşlıq haqqında Memorandum imzalanıb. Bu ilin avqustunda isə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşüb.

Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Pekinə səfəri çərçivəsində Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ilə görüşərək iki ölkə arasında əməkdaşlıq məsələlərini müzakirə edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun daxil olduğu nümayəndə heyəti Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının muzeyi ilə də tanış olub.

# ADU-da "KİV-də Azərbaycan dilinin təmizliyinin qorunması" mövzusunda müzakirələr aparılıb



Azərbaycan Dillər Universitetində (ADU) filologiya və jurnalistika fakültəsinin virtual jurnalistika kafedrasının müəllimi Nərgiz Cavadzadənin təşkilatçılığı ilə "KİV-də Azərbaycan dilinin təmizliyinin qorunması" mövzusunda "dəyirmi masa" keçirilib.

ADU-dan AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanov bildirib ki, xalqın həyat tərzində inkişaf nə qədər yüksək səviyyədə gedirsə, dil də onunla paralel şəkildə inkişafını tənzimləyir. "Dil başqa dillərdən sözlər almalı, ünsiyyətə girməli və tərkibində müəyyən dəyişikliklər etməlidir. Ədəbi dilimizdə qarşılığı olan sözlər əvəzinə alınma sözdən istifadə doğru deyil. Eləcə də dilimizə daxil olan alınma söz artıq bizim sözümüzdür, ədəbi dilimizdə hüquq qazanan sözü işlətmək borcumuzdur. Amma dilimizin yersiz olaraq başqa dillərin təsirinə düşməsinə imkan vermək olmaz. Mətbuatda dil qüsuru cəmiyyətə öz mənfi təsirini göstərir. Gərək jurnalist müstəqilliyin verdiyi imkandan öz üslubunun ortaya qoyulmasında istifadə edə bilsin. Biz jurnalistin əl-qolunu bağlaya bilmərik ki, öz üslubunu tapmasın. Jurnalist söz manevri də etməli, mövzuya yanaşmanın da yeni-yeni yollarını axtarmalıdır. Əlbəttə, dilin leksik, qrammatik qaydalarını pozarsa, üslub pərakəndəliyinə yol verərsə, dilə ziyan vuracaq. Biz istedadlı jurnalistlərin qayğısına qalmalı, onlara meydan verməliyik ki, öz üslublarını tapa bilsinlər", - deyə akademik bildirib. O, Prezident İlham Əliyevin dilin inkişafı, onun təmizliyi, dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı imzaladığı sərəncamların əhəmiyyətindən də danışıb.

"Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva qeyd edib ki, dilin saflığının qorunması ilə əlaqədar KİV-də aparılan monitorinqlər mütəmadi olmalıdır. Yetişən nəslin beynində, barmaq və göz yaddaşında sahman yaradana qədər monitorinqlər davam etməlidir. "Azərbaycançılığın qorunmasında üç əsas amil var - Azərbaycan insanı, məkanı və bir də dilimiz. Bu üç komponent bir yerdə azərbaycançılığın, həm də dövlətçiliyin ideologiyasına çevrilməsində rol oynayıb. Düşünürəm ki, bu məsələlərdə ziyalı olaraq öz səsimizi qaldırmalı, dərhal münasibətimizi bildirməliyik. Qəzetdə, jurnalda gördüyümüz orfoqrafik, üslubi səhvləri, yerində olmayan alınma sözlərlə bağlı iradlarımızı həm yazılı bildirməli, həm də zəng edib çatdırmalıyıq", - deyə S.Vəliyeva bildirib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, dilimizin saflığının qorunmasına hər zaman dövlət səviyyəsində diqqət göstərilir. Müstəqillik əldə etdikdən sonra bu istiqamətdə 30-a yaxın dövlət sənədi qəbul olunub. Bu sənədlərin hər birində dilimizin təmizliyi, onun yad təsirlərdən qorunması, Azərbaycan dilinin işləkliyinin təmin olunması əsas şərt kimi qoyulub.

ADU-nun rektoru, akademik Kamal Abdulla isə dövlət başçısının son dərəcə düşünülmüş, müdrik qərar və sərəncamlarının məhz dilimizin inkişafına xidmət etdiyini deyib. Rektor bildirib ki, ədəbi dilin normalarını pozan televiziya aparıcılarını Azərbaycan dilində kitab oxumağa məcbur etmək lazımdır.

Azərbaycan dili kafedrasının müdiri, Dövlət Dil Komissiyasının üzvü Adil Babayev aparıcılara təmənnasız olaraq gündə 6 saat nitq mədəniyyəti, ədəbi redaktə ilə bağlı dərs keçmək təklifi ilə çıxış edib.

Daha sonra qonaqlar ali məktəbin müəllim və tələbələrinin suallarını cavablandırıblar.

# Moskvada VI Rusiya-Azərbaycan Gənclər Forumu keçirilib




Dekabrın 18-də Moskvada, İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetində VI Rusiya-Azərbaycan Gənclər Forumunun açılışı olub.

AZƏRTAC xəbər verir ki, Forumda Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya Gənclərlə İş üzrə Federal Agentliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Dmitri İvanov, Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin üzvü Olqa Timofeyeva, İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin prorektorları Marina Filatova və Aleksandr Muradov, Azərbaycanın və Rusiyanın gənclər təşkilatlarının nümayəndələri, gənc sahibkarlar və başqaları iştirak ediblər.

İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin prorektoru Aleksandr Muradov Forumu açaraq, ali təhsil ocağının tarixi, təhsil müəssisəsinin fəaliyyəti barədə məlumat verib.

Səfir Polad Bülbüloğlu çıxışında bildirib ki, bu ilin oktyabrında ölkəmizdə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Baş nazirinin müavini Olqa Qolodets ilə görüşündə iki ölkə gənclərinin sıx əməkdaşlığının təmin edilməsi məqsədilə silsilə forum və konfransların keçirilməsinin əhəmiyyəti vurğulanıb. Diplomat, həmçinin Azərbaycan ilə Rusiya arasında qədim tarixi köklərə əsaslanan dostluq münasibətlərindən söhbət açıb. Forumda məqsədin iki ölkənin gəncləri arasında əlaqələrin möhkəmləndirilməsi olduğunu qeyd edən səfir deyib: "Bizim nəsil bir ölkədə yaşayıb, ümumi ideologiya əsasında tərbiyə alıb. İndi vəziyyət kökündən dəyişib. Hər bir respublika müstəqil dövlətdir. Biz çalışmalıyıq ki, gələcəyimiz olan gənclərimiz, eləcə də dövlət xadimləri və ziyalılar, yaradıcı şəxslər arasında əlaqələr itməsin". P.Bülbüloğlu ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov artıq ənənə halını alan Rusiya-Azərbaycan Gənclər forumlarının hər iki ölkənin gəncləri arasında sıx əlaqələrin qurulmasında, qarşılıqlı fikir, informasiya və təcrübə mübadiləsinin aparılmasında əvəzsiz rol oynadığını bildirib. A.Rəhimov Azərbaycan Prezidenti İlham Əliyevin "...biz bütün istiqamətlərdə çox səmərəli dinamika görürük və bütün bunlar bizim münasibətlərimizin ruhunu, xarakterini səciyyələndirir" fikrini toplantı iştirakçılarının diqqətinə çatdıraraq deyib: "İlk dəfə 2013-cü ildə Bakıda "Yeni nəsil: sərhədsiz məsuliyyət" mövzusunda keçirilən Forumda qəbul edilən qətnamə qarşılıqlı dialoqun və əməkdaşlığın möhkəm bünövrəsini qoyub, gələcək əməkdaşlığa təkan verib. 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan Rusiya Azərbaycanlı Gənclər Birliyi hər iki ölkə gənclərinin bir araya gələrək müxtəlif mövzular ətrafında dialoq qurması, fikir mübadiləsi aparmasında böyük rol oynayır".

Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlara üzv olduğunu diqqətə çatdıran nazir bildirib ki, ölkəmiz dövrün tələblərindən irəli gələrək müxtəlif dövlətlərlə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Nazir A.Rəhimov Forum çərçivəsində aktual mövzular ətrafında aparılacaq müzakirələrdə gəncləri fəal olmağa və qarşılıqlı fikir mübadiləsi aparmağa çağırıb.

Rusiya Gənclərlə İş üzrə Federal Agentliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Dmitri İvanov bildirib ki, təmsil etdiyi qurum Rusiyada təhsil alan azərbaycanlı gənclərin adaptasiyası istiqamətində fəal iş aparır. Rusiya hökuməti bu ildən başlayaraq gənclərin təşəbbüslərini dəstəkləmək üçün qrantların ayrılmasını Gənclərlə İş üzrə Federal Agentliyə həvalə edib. Bu, müxtəlif sahələri, o cümlədən mədəniyyət, tarix, sahibkarlıq və digər istiqamətləri əhatə edən layihələr ola bilər. Qanunvericiliyə əsasən, əcnəbi vətəndaşlar qrant ala bilməzlər. Lakin Rusiyada qeyri-formal tələbə birlikləri kimi qarşılıqlı fəaliyyət forması var. Rusiya vətəndaşı bu qrantları alıb BMT-nin üzvü olan istənilən dövlətdə layihələrin həyata keçirilməsi üçün istifadə edə bilər.

D.İvanov bu təcrübənin gələn il də davam etdiriləcəyinə ümid bəslədiyini söyləyib.

Açılış çıxışlarından sonra Forum işini "Könüllülük", "Gənclər təşkilatları" və "Sahibkarlıq" mövzularında keçirilən panel iclasları ilə davam etdirib.

Dekabrın 19-da Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Dağıstan Respublikasının paytaxtı Mahaçqalaya yola düşəcək. Səfər çərçivəsində müxtəlif təqdimatların keçirilməsi, təcrübə mübadiləsinin aparılması nəzərdə tutulub.

# "EurActiv" portalı: "NATO və Rusiya arasında danışıqlar üçün Bakı ən ideal yerdir"

Avropa İttifaqı məsələlərini işıqlandıran nüfuzlu "EurActiv" xəbər portalı dekabrın 12-də Bakıda NATO Müttəfiq Qüvvələrinin Avropadakı baş komandanı Körtis Skaparrotti ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov arasında keçirilmiş görüş barədə "NATO və Rusiya arasında danışıqlar üçün Bakı ən ideal yerdir" adlı məqalə yayıb.



Məqalədə bildirilir ki, Azərbaycanın paytaxtı 2018-ci il ərzində artıq ikinci dəfədir bu formatda görüşə evsahibliyi edir. Prezident İlham Əliyev ilə görüşü zamanı NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti Bakının NATO-Rusiya formatında görüş keçirilməsi üçün tam münasib məkan olduğunu deyib və Azərbaycanın artıq ikinci dəfədir belə bir tədbirə evsahibliyi etməsinin əhəmiyyətini vurğulayıb.

Yazıda Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin görüşlə bağlı fikirlərinə də yer verilib: "Azərbaycan və ABŞ arasındakı strateji münasibətlər təhlükəsizlik, enerji və iqtisadi sahələrdə əməkdaşlığı əhatə edir. Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO-nun etibarlı və fəal tərəfdaşıdır, əməkdaşlığın gündəliyi geniş xarakter daşıyır. Azərbaycan Respublikası, xüsusilə Bakı şəhəri regionun "diplomatik paytaxtı" olaraq humanitar, dayanıqlı inkişaf, multikulturalizm, mədəniyyətlərarası və dinlərarası dialoq, enerji və digər məsələlərin müzakirəsi üçün beynəlxalq məkan olmaqla bərabər, qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu strateji dialoq platforması rolunu da oynayır".

# Ləki-Qəbələ dəmir yolu bölgənin turizm imkanlarını genişləndirməklə bərabər, iqtisadi inkişafını da sürətləndirəcək

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev ölkə üzrə həyata keçirilən bu cür infrastruktur layihələrinin əhəmiyyətini vurğulayaraq demişdir: "Bu ilin birinci yarısında həm nəqliyyat, həm energetika sahələrində önəmli hadisələr baş vermişdir. May ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilmişdir. Bu, çox böyük hadisədir. Deyə bilərəm ki, bu, keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra nəqliyyat sektorunda ikinci böyük hadisədir. Ələt limanı indi uğurla fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün bu limanın çox böyük əhəmiyyəti var... Gələn ildən başlayaraq biz Bakı-Astara yolunun modernləşməsinə başlamalıyıq. Beləliklə, biz "Şimal-Cənub nəqliyyat dəhlizi"ni daha da sürətləndirəcəyik. Düzdür, indi dəmir yolu var, yüklər gedir, ancaq sürət aşağıdır. Sürəti artırmaq üçün bu istiqamətdə işlər görüləcək".

Göründüyü kimi, ölkəmizdə yerli əhəmiyyətli dəmir yolu xətlərinin yenidən qurulması və çəkilməsi istiqamətində də işlər davam edir. Bu sırada Bakı-Yalama dəmir yolunun modernləşdirilməsi layihəsinin, eləcə də icrası gələn ildən başlanacaq Bakı-Astara dəmir yolunun modernlşdirilməsi layihələrini qeyd etmək olar. Bundan əlavə, gələcəkdə Xaçmaz rayonu ərazisindən Qusar rayonuna dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Bu layihələrin icrası, o cümlədən Ləki-Qəbələ dəmiryol xəttinin inşası bölgələrdə həm turizmin, həm də iqtisadiyyatın inkişafına geniş imkanlar yaradacaq.

***R.KAMAL,***
***"Azərbaycan"***

İlin uğurlu yekunu

Azərbaycan Prezidenti İlham Əliyevin ilin əvvəlində səsləndirdiyi əsas tezislərindən biri bu idi ki, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, bu, Azərbaycana mənfi təsir etmədi, tam əksinə, valyuta ehtiyatları 2017-ci ildə 4,5 milyard dollardan çox artdı. Bəzi bədbin proqnozlara görə, neftin qiymətlərinin düşməsi Azərbaycanda inflyasiyanı artıracaqdı. Bu proqnozlar özünü doğrultmadı. Üstəgəl, neftin qiyməti nisbətən sabitləşdi. Azərbaycan iqtisadiyyatında islahatlar davam etdirildi, qeyri-neft sektoru kimi kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirildi.



# Sabitlik, davamlı inkişaf və yüksək rifah dövrü

Məhsuldarlıq yüksək oldu. Məsələn, təkcə elə pomidor və fındıq ixracatından yüz milyonlarla dollar gəlir əldə edildi. Pambıq istehsalı da artdı. Azərbaycan pambığı əvvəlki şöhrətini geri qaytarır. Bu həm əlavə gəlir, qeyri-neft sektorunun inkişafı, həm də bölgələrdə məşğulluğun artması deməkdir. Azərbaycanda abadlıq, quruculuq işləri davam edir, şəhərlər, kəndlər, regionlar inkişaf edir.

Prezident İlham Əliyev 2018-ci ildə iqtisadiyyatda daha böyük nəticələrin əldə ediləcəyinə ümidli idi və bu, özünü doğrultdu. Önəmli olan 2018-ci ildə də Azərbaycanda siyasi və iqtisadi sabitliyin davamının təmin edilməsi idi. Cənab İlham Əliyevin prezident seçkisində növbəti qələbəsi cəmiyyətin dövlət başçısına olan böyük inamının təcəssümü idi. Xalq növbəti dəfə sabitliyə və inkişafın davamına "hə" dedi.

Seçkidən sonra idarəetmədə dəyişikliklər özünü gözlətmədi. Cənab Prezident zəruri dəyişikliklər etdi.

Prezident son illər kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərir. Bunun səbəbi odur ki, dövlət başçısı iqtisadiyyatı şaxələndirmək, neft və qaz satışından asılılığı azaltmaq istəyir. Bunun üçün isə kənd təsərrüfatı da sürətlə inkişaf etdirilməlidir. Prezidentin təşəbbüsü ilə yaradılan "ASAN xidmət" ölkədə ən mükəmməl struktura, dünyada Azərbaycan brendinə çevrilib. ASAN işə düşdükdən sonra vətəndaşlara bütün sənədlər vaxt itirilmədən verilir, heç bir rüşvət hallarına da rast gəlinmir.

Prezident İlham Əliyevin sosial müdafiə siyasəti də təqdirəlayiqdir. Hazırda bu sahədə yeniliklərə üstünlük verilir. Gələn il ASAN sisteminin bənzəri - "DOST xidməti" işə düşəcək. "DOST" sosial müdafiə sistemindəki neqativ halları ortadan qaldırmalıdır. Vətəndaşlar bu xidmət vasitəsilə onları maraqlandıran suallara cavab tapacaq, pensiya və əlilliklə bağlı sənədlərini qaydaya sala biləcəklər.

İl ərzində Sumqayıtda iki böyük zavod işə düşdü. Prezidentin "sənaye parkları" ideyası sürətlə həyata vəsiqə qazanır. Prezidentin siyasəti bundan ibarətdir ki, paytaxtda yaşayan sakin hansı şərait və imkanlara malikdirsə, bölgələrdə yaşayan vətəndaşlarımızın da eyni gəlir imkanları olmalı, sosial problemləri həll edilməli, bütün tələbatları ödənilməlidir. Məhz bu siyasətin nəticəsidir ki, hər bölgədə və rayonda müasir xəstəxanalar, idman mərkəzləri, məktəblər, bağçalar, kitabxanalar tikilir, yaraşıqlı parklar salınır, infrastruktur yenilənir.

Çəkilən yollara görə Azərbaycan dünya ölkələri sırasında yüksək yerlərdə dayanır. Azərbaycan dünya avtomobil yollarının reytinqində 4,8 bal toplayaraq 137 ölkə arasında 34-cü yeri tutub. Bu, böyük nəticədir. Azərbaycan bu sıralamada bütün qonşu ölkələri, o cümlədən Ermənistanı, Gürcüstanı, Rusiyanı, Ukraynanı, Qazaxıstanı xeyli qabaqlayıb. Keyfiyyətli yola görə qabaqladığımız ölkələr arasında Avropa dövlətləri də az deyil. Prezidentin də vurğuladığı kimi, müasir yolların varlığı iqtisadi inkişafa şərait yaradır.

Hər rayonun və kəndin içməli suyu, daimi qazı və elektrik enerjisi olmalıdır. Bu, Prezidentin hökumət qarşısında qoyduğu əsas vəzifədir. 2018-ci ildə bu vəzifənin yerinə yetirilməsi istiqamətində işlər uğurla davam etdirildi. Bir neçə ildən sonra Azərbaycanın elə bir bölgəsi tapılmayacaq ki, orada müasir yol, su, qaz və elektrik xətti olmasın. Cənab Prezident avqust ayında ucqar Lahıc qəsəbəsində qaz verilməsi mərasimində iştirak etdi. Lahıc Azərbaycanın dağlıq ərazidə yerləşən kəndlərindəndir. Hazırda Lahıca müasir yolla da getmək olar, qışda qazın istisində qızınmaq da. Prezident İlham Əliyevin Lahıca qaz verilməsi mərasimində dediyi kimi, bu qəsəbəyə əvvəlki yol keçilməz idi. İndi isə rahat yol inşa edilib. Əgər bütün bu şərait ucqar Lahıc qəsəbəsi üçün yaradılıbsa, demək, Azərbaycanın həll edə bilməyəcəyi problem yoxdur. Yetər ki, dövlət başçısının qoyduğu vəzifələr vaxtında yerinə yetirilsin.

Prezident "Şimal-Cənub nəqliyyat dəhlizi"nin istismara verilməsinə böyük əhəmiyyət verir. Bu nəqliyyat dəhlizi Azərbaycanın siyasi və iqtisadi qazanclarını daha da artıracaq. Bu sırada il ərzində Azərbaycan və Türkiyə prezidentlərinin açılışını birgə etdikləri "Star" zavodunu göstərmək olar. Zavod istifadəyə verildikdən sonra ilk 5 il ərzində Azərbaycan iqtisadiyyatına hər il 850 milyon dollardan çox gəlir gətirəcək. Növbəti 10 il ərzində isə müəssisə hər il 600 milyon dollardan çox gəlir gətirəcək. Yəni SOCAR 10 ildən sonra "STAR" zavodundan xalis gəlir əldə edəcək. Bu, Azərbaycan Prezidentinin uğurlu enerji siyasətinin daha bir təcəssümüdür.

Cənab Prezidentin oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir daha iqtisadiyyatdakı uğurlardan və problemlərdən danışması da diqqəti cəlb edirdi.

Uğurlar kimi bunları da göstərmək olar:

- İl ərzində bütün sosial layihələr icra edilib.

- Azərbaycan 2018-ci ildə enerji siyasətində uğurlar qazanıb. May ayında Bakıda "Cənub qaz dəhlizi"nin rəsmi açılışı qeyd edildi. Prezident bunu tarixi hadisə adlandırdı. Bir ay sonra Türkiyədə TANAP layihəsi açıldı. Hazırda "Cənub qaz dəhlizi" layihəsi uğurla icra edilir. TAP layihəsinin icrası ilə bağlı heç bir problem yoxdur. Prezident onu da dedi ki, Azərbaycan həm Avropaya qaz satmaq, həm də Avropanın bəzi ölkələrində qaz infrastrukturu layihələrində iştirak etmək istəyir.

- Uğurlardan biri kimi Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin tamamlanması göstərildi. Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Liman may ayında istifadəyə verildi. Bundan sonra Azərbaycanın tranzit imkanları artacaq.

- Prezident digər uğur kimi vergi və gömrük sistemində aparılan islahatları göstərdi. Bu, müsbət dəyişikliklərə səbəb olub. Gömrük və vergi yığımları artıb. Prezident bu sahədə islahatların davam etdirilməsini tapşırdı. Buna baxmayaraq, iclasda o da qeyd edildi ki, biznesmenlər vergidən yayınmağa çalışırlar. Prezident vergidən yayınanları xəbərdar etdi, onlara qarşı sərt tədbirlər görüləcəyini bildirdi.

Cənab Prezident hökumət qarşısında çox ciddi vəzifələr qoydu. Çünki problemlərin həlli insanların həyatını daha da rahatlaşdırmalıdır. Prezident məmurlar üzərində ictimai nəzarətin güclənməsini də istəyir. Bu da çox vacib şərtlərdən biridir.

Yeni ilə yeni ümidlərlə daxil oluruq. Əsas nemət sabitliyimizdir, məhz bunun sayəsində inkişafımız davamlı hala gəlib. Yeganə problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ancaq bu problemin də öhdəsindən gələcəyimizə tam əminəm. Bunu həm Aprel döyüşlərində göstərdik, həm də Naxçıvanda yüksəkliklərimizi geri qaytarmaqla təsdiq etdik. Həm Lələtəpədə, həm də Naxçıvanda işğaldan azad olunan ərazilərdə oldum, döyüşçülərimizin ruhundan bir daha anladım ki, xalqımız torpaqlarımızı yağı düşməndən azad etməyə hazırdır.

***Adil ƏLİYEV,***
***Milli Məclisin deputatı***

# Eviniz abad olsun

*Əvvəli 1-ci səh.*

Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib... Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir".

Qeyd edək ki, 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib. Amma dövlət qayğısı ilə əhatə olunanlar təkcə bu gün xidmət edən hərbçilər deyil. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid və əlil olan vətəndaşların ailələri də unudulmur. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə yüksək standartlara cavab verən mənzillər verilib. Gələn il isə bu kateqoriyadan olan ən azı 800 ailə də yeni mənzillərə köçəcək. Bununla yanaşı, indiyədək həmin statusda olan hərbçilər dövlət tərəfindən minlərlə minik avtomobilləri ilə də təmin ediliblər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş ailələrin sosial müdafiəsi də unudulmur. Prezident İlham Əliyev tərəfindən imzalanan fərmanla şəhidlərin vərəsələrinə 11 min manat vəsaitin verilməsi də bu amala xidmət edir. Təqribən 10 minə yaxın ailənin bu pulu alacağı gözlənilir. Artıq onların xeyli hissəsi həmin vəsaiti alıb.

Bu sırada indiyədək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün hər cür infrastrukturu olan 100-dən çox şəhərciyin salınması da qeyd olunmalıdır. Təkcə cari ildə Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün çoxsaylı binalar, evlər tikilib, 5800 məcburi köçkün ailəsinə sevinc yaşadılıb. Bu siyasət gələn ildə də davam etdiriləcək. Bununla da mənzillə, evlə təmin edilən məcburi köçkünlərin sayı 300 minə çatacaq.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin oktyabrın 1-i vəziyyətinə 410,9 min nəfərə sosial müavinətlər təyin olunub. Yaşa görə müavinət alanların sayı 47,9, əlilliyə görə 164,9, ailə başçısını itirdiyinə görə 43,5, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşınadək uşaqların sayı isə 73,5 min nəfərdir. Eyni zamanda əmək pensiyası almaq hüququ olmayan 54,2 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün müavinət verilib. Valideynlərini itirən və valideyn himayəsindən məhrum olan uşaqların 303 nəfər qəyyumu da aylıq müavinət alıb. Bununla yanaşı, şəhid ailələrinin, müharibə əlillərinin, Çernobıl AES-də baş verən qəzanın ləğvində iştirak edərək I və II qrup əlil olan şəxslərin və müddətli hərbi xidmət qulluqçularının 8,7 min ailəsinə 15,6 min uşaq üçün aylıq müavinət təyin olunub. Dövlət dünyaya gələn körpələrə də qayğı göstərməyi unutmur. Bu məqsədlə 812 nəfər 1 yaşadək uşağa görə 809 ailəyə və 5-dən çox uşağı olan 2,9 min qadına 8,8 min uşaq üçün sosial müavinət ödənilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Aqrar islahatların intellektual mərhələsi

Azərbaycanda ilk dəfə aqrar və yaşıl texnologiyalar üzrə keçirilən "AgTech and Green Energy" mövzusunda beynəlxalq forum iki gün davam etdi.

Kənd Təsərrüfatı və Energetika nazirliklərinin birgə təşkilatçılığı ilə ADA Universitetində keçirilən forumda Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva, dövlət qurumlarının rəsmiləri, fermer təsərrüfatlarının rəhbərləri, yaşıl texnologiyalar üzrə xarici ekspertlər, startap və texnoloji şirkətlərin nümayəndələri, özəl sektorun təmsilçiləri iştirak etmişlər.

Müasir dünyada ərzaq təhlükəsizliyi, əhalinin keyfiyyətli qida məhsulları ilə təchizatı aqrar sektoru qlobal miqyasda ən mütərəqqi texnologiyaların və innovasiyaların tətbiqinə sövq edir. Azərbaycan islahatların önündə gedən ölkə kimi qeyri-neft sektorunun inkişafında, xüsusən də aqrar sektorda son texnologiyaların tətbiqində ciddi təşəbbüslər nümayiş etdirir. Aparılan islahatlar, kənd təsərrüfatının ənənəvi sahələrinin bərpası belə qənaətə gəlməyə imkan verir ki, aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu istiqamətdə artıq logistika sistemi qurulmuş, müasir soyuducular, emal müəssisələri istifadəyə verilmiş, böyük su ehtiyatları yaradılmış, yüz min hektarlarla torpaqlar dövriyyəyə qatılmış, aqroparklar fəaliyyətə başlamışdır. Gərgin əmək sayəsində ümumi daxili məhsulda və ixracda kənd təsərrüfatının payı artmışdır.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri İ.Kərimov aqrar sahəni iqtisadiyyatın prioritet sahəsi kimi müəyyən edən Prezident İlham Əliyevin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tapşırıqlarının mövcud resurslardan səmərəli istifadədən, məhsuldarlığın artırılmasından, ətraf mühitin qorunmasının təmin edilməsindən ibarət olduğunu diqqətə çatdırmışdır.

Bu gün aqrar sektorun müasir idarəetmə sistemində düzgün və səmərəli idarəçilik, kəndli və fermerlərə yaxınlıq, innovasiyaların tətbiqinin fəaliyyət modeli kimi əsas götürüldüyünü deyən İ.Kərimov forumun fermerlərə innovativ yeniliklərin geniş spektri ilə tanış olmaq imkanı verdiyini qeyd etmişdir.

Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli forumda ölkəsinin kənd təsərrüfatı sahəsində tətbiq etdiyi yenilikləri Azərbaycanla bölüşməyə hazır olduğunu vurğulamış, başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə kənd təsərrüfatı və qida sənayesi sahəsində fəaliyyət göstərən iş adamlarının daxil olduğunu, əməkdaşlığın genişləndirilməsi baxımından tədbirin xüsusi əhəmiyyət kəsb etdiyini demişdir.

Azərbaycan Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi Azər Əmiraslanov isə forumda aqrar siyasətin başlıca vəzifəsinin effektivlik meyarları ilə ekoloji tələblərin səmərəli uzlaşdırılmasından ibarət olduğunu diqqətə çatdırmışdır. "Ölkədə kənd təsərrüfatının inkişafına yönəlmiş sistemli və kompleks tədbirlər görülür, strateji məqsədlər, prinsiplər və hədəflər müəyyən olunur, aqrar sektor Azərbaycanda prioritet sahə elan edilib" deyən A.Əmiraslanov qeyd etmişdir ki, Prezident İlham Əliyevin əsas tapşırıqlarından biri aqrar sahədə yeni texnologiyaları, elektron kənd təsərrüfatı sistemini tətbiq etməkdən, Yer səthinin müşahidə peykinin imkanlarından həm ekoloji siyasətin, həm də aqrar siyasətin məqsədləri üçün geniş istifadə edilməsindən ibarətdir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə də forumdakı çıxışında bərpa olunan enerji mənbələrinin potensialının böyük olduğunu, yaxın illərdə külək, günəş və bioenerji üzrə yeni enerji güclərinin istifadəyə verilməsinin planlaşdırıldığını, beynəlxalq ekspertlərin dəstəyi ilə "Bərpa olunan enerji mənbələri haqqında" qanun layihəsinin hazırlandığını bildirmişdir. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə bərpa olunan enerjinin şəbəkəyə inteqrasiyası və şəbəkənin gücləndirilməsi layihəsinə başlanıldığını nəzərə çatdıran nazir eyni zamanda Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığını, ixtisaslaşmış bir sıra şirkətlərlə məsləhətləşmələr aparıldığını, Asiya İnkişaf Bankının dəstəyi ilə Böyükşor gölündə "Üzən Günəş Paneli" pilot layihəsi həyata keçirildiyini xatırlatmışdır.

15-ə yaxın ölkədən 40-dək xarici mütəxəssisi bir araya toplayan forumda ABŞ, Türkiyə, İsrail, Rusiya, Niderland, Ukrayna və bir çox ölkələrdən olan sahibkarlar, vençur kapitalistlər, elm xadimləri, aparıcı texnologiya şirkətlərinin nümayəndələri iştirak etmişlər. Onların iştirakı ilə "Energetika və aqrar texnologiyaların gələcəyi", "Aqrar və yaşıl enerji üçün texnologiyalar", "Aqrar və energetika texnologiyaları üzrə akademiya", "Siyasətin təsiri", "Yeni innovativ ekosistemlər", "Fermerlər üçün seksiya" və bir sıra başqa mövzular üzrə seminar da keçirilmişdir.

Prezident İlham Əliyevin iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da beynəlxalq təcrübəyə uyğun apardığı islahatların fonunda Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda beynəlxalq forumun keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu forum aqrar və energetika sahələrinin perspektiv əlaqələri, yeni texnologiyaların və yaşıl enerjinin tətbiqi sahəsində qabaqcıl təcrübəyə və dünyada müşahidə olunan trendlərə nəzər salmağa imkan verir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Pambıq yığımı yekunlaşır



Adətən bolluq rəmzi sayılan, baharda əkilən, səpilən toxumların bar verdiyi fəsil hesab olunan payız da qurtarır. 2-3 gündən sonra qapımızı qış döyəcək, öz qarı, şaxtası və digər qayğıları ilə. Qışı digər fəsillərdən fərqləndirən cəhətlərdən biri yox, birincisi həm də odur ki, hələ dədə-babadan o, təknədən yemək mövsümü kimi qəbul edilib. Yəni yaydan, payızdan yığılanı qışda yeyiblər. Torpaq isə qarın altında (təbii ki, yağarsa) dincələrək öz bahar oyanışını gözləyib.

Bütün bunlar təbiətin sübuta ehtiyacı olmayan reallıqlarıdır. Amma bir reallıq da var ki, bu gün insanlar yaşı bilinməyən həmin təbiətdən, o cümlədən torpaqdan maksimum bəhrələnmək istəyirlər və bu yolda ağla gələn və gəlməyən üsullardan istifadə edirlər. Kim inanardı ki, vaxt olacaq heç bir meyvənin, tərəvəzin, bostanın öz mövsümü olmayacaq. Kim fikirləşərdi ki, çölün düzündə hektarlarla sahədə oazis kimi istixanalar yaradılacaq və onlarda quş südündən savayı nə desən yetişdiriləcək. Və nəhayət, kim güman edərdi ki, dekabrın sonunadək Azərbaycanda isti sevən bitki - pambıq yığılacaq. Bəli, bütün bunlar aqrar elmin insan zəhməti ilə vəhdətinin bəhrəsidir və onun nə dərəcədə təbiətə, torpağa, sözsüz ki, özümüzə xeyri, ya ziyanı olması ilə işimiz yoxdur.

Qayıdaq yenə də pambığa. Dövlət Statistika Komitəsinin dekabrın 18-nə olan məlumatına görə, qeyd olunan günədək ölkə üzrə 228 min ton pambıq tədarük edilmişdir. Bu da ötən ilin eyni dövrünədək yığılmış məhsuldan 24,9 min ton, yaxud 12,2 faiz çoxdur. Həftə ərzində toplanmış pambığın miqdarı isə 5,3 min ton olmuşdur. Düzdür, bu, dekabrın ortaları üçün elə də kiçik rəqəm deyil. Lakin bütün hallarda həm havaların yağmurlu keçməsi, həm də tarlalarda məhsulun tükənməsi artıq cari pambıq mövsümünün də yekunlaşmaq üzrə olmasından xəbər verir.

Tədarük edilən pambığın həcminə görə rayonların sıralanmasında isə, gözlənildiyi kimi, heç bir dəyişiklik yoxdur. Yenə də Saatlı (30 min ton), Bərdə (24,9 min ton), Ağcabədi (22,8 min ton), Biləsuvar (21,7 min ton), Beyləqan (21,2 min ton), İmişli (18 min ton), Sabirabad (17 min ton), Salyan (10,2 min ton) 10 min tondan çox pambıq istehsal edən rayonlar sırasındadır. 5 min tondan çox məhsul tədarük etmiş rayonlar sırasında isə 9,9 min tonla Neftçala, 9 min tonla Goranboy, 8,05 min tonla Tərtər, 6,4 min tonla Kürdəmir, 5,6 min tonla Ağdam, 5,1 min tonla Yevlax qərarlaşıb.

**18.12.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 18 dekabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **228003,52** | **203199,11** | **112,2%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 22825,41 | 20016,18 | 114,0% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5615,84 | 6122,69 | 91,7% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3725,51 | 3625,23 | 102,8% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1909,02 | 2631,10 | 72,6% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 21281,00 | 15426,80 | 137,9% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 24962,78 | 22041,97 | 113,3% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 21773,09 | 24568,27 | 88,6% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1247,88 | 992,00 | 125,8% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 2051,16 | 2054,60 | 99,8% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 9005,42 | 6844,80 | 131,6% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1152,56 | 898,63 | 128,3% |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 18077,65 | 14001,41 | 129,1% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6448,14 | 4753,34 | 135,7% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 9998,37 | 8811,77 | 113,5% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 30058,10 | 25582,20 | 117,5% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 17003,11 | 17830,77 | 95,4% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 10260,08 | 9063,70 | 113,2% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 922,63 | 46,30 | 19,9 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 8057,30 | 8320,27 | 96,8% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1636,03 | 2133,83 | 76,7% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5187,07 | 3343,65 | 1,6 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4805,37 | 4089,60 | 117,5% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

## İqtisadiyyat xəbərləri

## Hər ay hər birimiz ərzağa 150 manat xərcləyirik

Keçən ilin 11 ayı ərzində pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,7 faiz üstələyərək 32,4 milyard manata bərabər olmuşdur.

Ticarət dövriyyəsinin 16,2 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 16,1 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmiş və satılmış məhsulların dəyəri 2017-ci ilin yanvar-noyabr aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 2,2 və 3,3 faiz üstələmişdir.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə xərclədiyi vəsaitin 45,9 faizi ərzaq məhsullarının, 4,3 faizi içkilər və tütün məmulatlarının, 18,5 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,2 faizi elektrik malları və mebellərin, 5,8 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,3 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

İstehlak məhsullarının dəyər ifadəsində 16,9 faizi ticarət müəssisələri, 51,3 faizi fərdi sahibkarlar tərəfindən, 31,8 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2017-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 37,3 faiz artmış, fərdi sahibkarlar üzrə 1, bazar və yarmarkalarda 4,2 faiz azalmışdır.

Hesabat dövründə əhalinin hər nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 300,4 və ya 2017-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 12,1 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 150,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 149,7 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

## İqtisadiyyatın qeyri-neft sektorunda 668 min nəfər çalışır

2018-ci il noyabrın 1-nə olan vəziyyətə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 faiz artaraq 1 milyon 552,8 min nəfər olmuşdur. Onlardan 884,7 min nəfəri dövlət, 668,1 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 21,4 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,4 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi tikinti, 7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı; 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

10 ayda ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ilin müvafiq dövrünə nisbətən 2,8 faiz artaraq 540 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## 11 ayda 72,4 milyard manatlıqdan çox ÜDM istehsal olunub

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında ölkədə ümumi daxili məhsul (ÜDM) istehsalı 1 faiz artaraq 72 milyard 432,1 milyon manata çatmışdır. Əlavə dəyərin istehsalı əvvəlki ilin müvafiq dövrünə nisbətən iqtisadiyyatın qeyri-neft sektorunda 1,3, neft sektorunda 0,3 faiz artmışdır.

ÜDM-in 45,2 faizi sənayedə, 9,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmirində, 6,8 faizi tikintidə, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatında, 5,4 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıqda, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 1,5 faizi informasiya və rabitədə, 15,1 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 8 faizini təşkil etmişdir.

Bu dövrdə informasiya və rabitədə əlavə dəyər istehsalı 9,2, nəqliyyat və anbar təsərrüfatında 7,9, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 7,6, kənd təsərrüfatları, eləcə də balıqçılıqda 4,6, ticarət; nəqliyyat vasitələrinin təmirində 2,7, sənayedə 1,3, digər xidmət sahələrində 0,7 faiz artmış, tikintidə isə 13,1 faiz azalmışdır.

Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 7378,5 manat olmuşdur.

***"Azərbaycan"***

# Alovlu vətənpərvər, istedadlı alim

Azərbaycanın 1941-1945-ci illər müharibəsi dövrü tarixinin ilk tədqiqatçılarından biri, müharibə veteranı, tarix elmləri doktoru, professor Məzahir Həmid oğlu Abasovun bu il anadan olmasının 100 ili tamam olur.



M.Abasov 1918-ci ilin dekabrında Bakıda qulluqçu ailəsində anadan olmuşdur. 1935-1936-cı illərdə Bakı Sənaye və Mühəndislər Universitetinin hazırlıq kursunda, 1936-1937-ci illərdə Odessa Şəhər Ümumittifaq Konserv Sənayesi Kimya-Texnologiyası İnstitutunda təhsil almışdır. 1937-ci ildə ikinci kurs tələbəsi ikən xüsusi yığım ilə Hərbi Dəniz Donanması sıralarına daxil edilmiş, RF-nin Krasnodar diyarının Yeysk şəhərində aviasiya məktəbində oxumağa göndərilmiş, üç illik təhsildən sonra, 1940-cı ildə təyyarəçi-leytenant rütbəsi ilə SSRİ Hərbi Hava Qüvvələri Qara dəniz donanmasının Krımda yerləşən uçuş heyətinə komandir təyin edilmişdir. Məzahir Abasov 1941-1945-ci illər müharibəsində alman faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan Azərbaycanın şanlı oğullarından biridir. O, Ukraynanın Sevastopol, Odessa şəhərlərinin və Qafqazın hava hücumundan müdafiəsində fəal iştirak etmişdir. Növbəti döyüşlərin birində Məzahir Abasov faşist təyyarəçiləri tərəfindən ağır yaralanır və Qara dənizə düşür. Altı gün yaralı halda dəniz suyu üzərində qalan cəsur təyyarəçi sovet hərbçiləri tərəfindən xilas edilir və hospitala yerləşdirilir. İgid təyyarəçinin qəhrəmanlığı haqqında ölkə mətbuatında geniş məlumatlar yayılır. Xalq şairi Səməd Vurğun cəsur təyyarəçi Məzahir Abasovun qəhrəmanlığını vəsf edən "İgid şahin" şeirini yazır. Onun hərbi hospitalda müalicə olunduğundan xəbər tutan respublikanın ozamankı rəhbəri Mircəfər Bağırov bu qəhrəmanın Bakıya gətirilməsi və burada müalicə olunması barədə tapşırıq verir. Çox ağır vəziyyətdə vətəninə gətirilən igid təyyarəçinin müalicəsi Azərbaycanın tanınmış alim və həkimləri Əziz Əliyev və Mustafa bəy Topçubaşova tapşırılır. Onların böyük səyləri nəticəsində Məzahir Abasov həyata qaytarılır və o, respublika rəhbərinin tövsiyəsi ilə Bakı Şəhər İcraiyyə Komitəsində işə qəbul edilir. M.Abasov 1942-1964-cü illərdə Bakı Şəhər Xalq Deputatları Sovetində işləyir, bir sıra rəhbər və seçkili vəzifələrdə çalışır.

Həmin illərdə M.Abasov Bakı şəhəri və paytaxtın rayon sovetlərinə bir neçə çağırış üzrə deputat seçilir. 1955-ci ildə V çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olan M.Abasov sovet dövlət orqanlarında öz fəaliyyətini davam etdirməklə bərabər, elmi iş ilə də məşğul olmağa başlayır. 1957-ci ildə o, BDU-nun Sov.İKP tarixi kafedrasında dissertant olur və 1960-cı ildə "Azərbaycan partiya təşkilatının Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər) cəbhəyə köməyi" mövzusunda tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə edir.

Bu dövrdə M.Abasov tədqiqat mövzusu üzrə bir çox məqalələr yazır və 1960-cı ildə "Azərbaycan Kommunist Partiyası cəbhəyə köməyin gücləndirilməsi uğrunda mübarizədə" adlı kitabını çap etdirir.

Alim 1963-cü ildə Azərbaycan EA-nın A.A.Bakıxanov adına Tarix İnstitutuna işə qəbul edilir və ömrünün axırınadək burada çalışır. Həmin illərdən başlayaraq onun qələmindən 1941-1945-ci illər müharibəsi dövründə Azərbaycan xalqının göstərdiyi əmək qəhrəmanlığını işıqlandıran bir neçə sanballı elmi əsər və məqalə çıxmışdır.

Məzahir Abasov 1967-ci ildə "Bakı Böyük Vətən müharibəsi illərində" adlı ilk irihəcmli monoqrafiyasını çap etdirir və onun əsasında doktorluq dissertasiyasını müdafiə edir. Onun ikinci irihəcmli monoqrafiyası 1990-cı ildə "Bakı şəhər partiya təşkilatı 1941-1945-ci illərdə" adı ilə nəşr olunur və burada Məzahir müəllim təkzibedilməz sənədlər əsasında tarixşünaslığımızda ilk dəfə 1941-1945-ci illər müharibəsi dövründə Bakının SSRİ-nin əsas yanacaq mənbəyi olduğunu sübut edir. Bu məsələ ilə bağlı o, Moskvada 1979-cu ildə keçirilən konfransda çıxış etdikdən sonra rus-erməni elmi siyasi dairələrinin qəzəbinə tuş gəlsə də, fikrindən dönmür. Döyüşən sovet ordusunun hərbi texnikasının 85-90 faizinin Bakı yanacağı ilə hərəkətə gəlməsi və burada 130-dan çox hərbi silah növlərinin hazırlanıb cəbhəyə göndərilməsi məsələlərini ilk dəfə bir tədqiqatçı kimi məhz M.Abasov öz əsərlərində göstərmişdir.

Alim bir hərbi təyyarəçi kimi 1975-ci ildə çap etdirdiyi "Mərdlik qanadlarında" adlı monoqrafiyasında ilk dəfə Azərbaycanın hərbi təyyarəçilərindən söhbət açır, onların qəhrəmanlıqlarından nümunələr verir.

M.Abasov 1976-1977-ci illərdə çapdan çıxmış ikicildlik "Azərbaycan SSR Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər)" sənədlər toplusunun tərtibçisi və müəlliflərindən biridir. O, həmçinin "Veteranlar yada salır" (1985), "Şöhrət və ölməzlik məktubları" (1987) adlı məcmuələrin yazılıb tərtib edilməsində bilavasitə iştirak etmişdir.

Ümumiyyətlə, Məzahir Abasov 3 irihəcmli monoqrafiyanın, 10 kitabın müəllifi və 18 külliyyatın tərtibçisi və redaktorlarından biri olmuşdur. O, 9 nəfər tarix üzrə fəlsəfə doktoru hazırlamış, bir neçə doktorluq və fəlsəfə doktoru dissertasiyalarına opponentlik etmişdir.

M.Abasov H.Əliyevin "Azərbaycan qanadları" (1980-ci il) və Y.Məmmədovun "Qəhrəman oğul və qızlarımız" (1983), Y.Q.Aqarunovun "Neft və qələbə" (1991) əsərlərinin redaktoru olmuşdur.

Alim öz elmi fəaliyyətini ictimai işlə sıx şəkildə əlaqələndirirdi. O, 1984-1987-ci illərdə "Azərbaycan SSR-in tarixi və mədəniyyət abidələri" toplusunun şöbə rəhbəri işləmişdir.

Bu illər ərzində Məzahir müəllim bir neçə doktorluq, fəlsəfə doktoru dissertasiyalarına, kitablara və kitabçalara rəylər yazmışdır. O, həm də 7 cildlik "Azərbaycan tarixi"nin VII cildinin müəlliflərindən biri olmuşdur.

M.Abasov müharibədə iştirakına görə "Qırmızı Bayraq" və "1 dərəcəli Vətən müharibəsi" ordenləri, 14 hərbi və yubiley medalları və müstəqil dövlətimizin "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin təklifi ilə 1995-ci ilin mayında Faşizm üzərində Qələbənin 50 illik yubileyi beynəlxalq səviyyədə qeyd olunan zaman Paris, London və Moskva şəhərlərində keçirilən təntənəli mərasimlərdə iştirak edən Azərbaycan Respublikasının nümayəndə heyəti tərkibinə Sovet İttifaqı qəhrəmanları Ziya Bünyadov və Məlik Məhərrəmovla yanaşı müharibə qəhrəmanı Məzahir Abasov da daxil edilmişdi.

Bu, ulu öndərin Məzahir Abasov şəxsiyyətinə, onun keçdiyi şərəfli həyat yoluna olan böyük hörmətinin göstəricisi idi. M.Abasov Bakı şəhəri Səbail Rayon Veteranlar Şurasının uzun müddət sədri olmuşdur.

İstedadlı alim, gözəl insan, alovlu vətənpərvər Məzahir Abasovun əziz və unudulmaz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

***Cəbi BƏHRAMOV,***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*

***Elmar MƏHƏRRƏMOV,***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun İnformasiya Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent*

# Görkəmli teatr rejissoru Mehdi Məmmədovun 100 illiyi təntənəli şəkildə qeyd edilib





Dekabrın 18-də Akademik Milli Dram Teatrında Azərbaycan teatr sənətinin istedadlı nümayəndəsi, görkəmli teatr rejissoru, tanınmış aktyor, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı Mehdi Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları teatrın foyesində görkəmli sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgiyə baxıblar.

Tədbirdən əvvəl jurnalistlərə müsahibə verən mədəniyyət naziri Əbülfəs Qarayev Mehdi Məmmədovun bənzərsiz sənət dünyasından söz açıb. Bildirib ki, ölkə başçısı cari ilin 23 aprel tarixində "Mehdi Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, görkəmli rejissorun yubileyi ölkəmizdə silsilə tədbirlərlə qeyd edilməkdədir.

Nazir vurğulayıb ki, 2019-cu ildə də ölkəmizdə bir-birindən rəngarəng mədəni tədbirlər keçiriləcək, görkəmli ədiblərimizin yubileyləri dövlət səviyyəsində qeyd olunacaq.

Tədbirdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxış edərək bildirib ki, bütün sahələrdə olduğu kimi, Azərbaycan teatr sənətinin yaranmasında, inkişafında, təbliğində müstəsna xidmətləri olan sənətkarların qiymətləndirilməsi, o sənətkarların keçdiyi yaradıcılıq yolunun, ölkə mədəniyyətinə verdiyi töhfələrin dəyərləndirilməsi, onların əziz xatirəsinin yad olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Müxtəlif illərdə görkəmli sənətkarlar - Abbas Mirzə Şərifzadə, Ələsgər Ələkbərov, Ağadadaş Qurbanov, Hökümə Qurbanova, Əliağa Ağayev, Barat Şəkinskaya, Adil İsgəndərov, Şəmsi Bədəlbəyli, Tofiq Kazımov və başqa sənətkarların yubileyləri dövlət səviyyəsində qeyd olunub, onların keçdiyi sənət yolu, Azərbaycan mədəniyyətində qoyduqları irs işıqlandırılıb, ölkə səviyyəsində silsilə tədbirlərlə yad edilib. Teatr sənətinin inkişafında müstəsna rolu olan belə görkəmli rejissorlardan biri də Mehdi Məmmədovdur. Ölkə başçısı Mehdi Məmmədovun anadan olmasının 100 illiyinin keçirilməsi haqqında sərəncam imzalayıb, Mədəniyyət Nazirliyi sərəncamın icrasını təmin etmək məqsədilə tədbirlər planı hazırlayıb. Keçirilən bugünkü tədbir də Mehdi Məmmədovun xatirəsinə həsr olunmuş növbəti ehtiramın göstəricisidir.

Yaradıcılıq fəaliyyətinə 1940-cı ildə Gəncə Dövlət Dram Teatrında başlayan gənc rejissor burada Məmmədhüseyn Təhmasibin "Bahar", Üzeyir Hacıbəylinin "Məşədi İbad", Cəfər Cabbarlının "Od gəlini", Səməd Vurğunun "Vaqif" pyeslərinə quruluş verib. Öz axtarışları, üslubu, dəstxətti ilə seçilən sənətkar ömrünün sonuna qədər respublikanın mötəbər teatrlarında baş rejissor vəzifəsində çalışıb. Xalqın, teatrsevərlərin maraqla izlədiyi, sevdiyi tamaşaların müəllifi olub. O, 1953-1960-cı illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, 1960-1963-cü illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, 1978-1982-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında çalışıb. Yaradıcılıq fəaliyyəti ilə yanaşı, M.Məmmədov 1969-cu ildən 1976-cı ilə qədər Azərbaycan Teatr Cəmiyyətinə də sədrlik edib.

Mehdi Məmmədov rejissor kimi qazandığı uğurları həm də aktyor kimi təkrarlayıb. Onun Akademik Dram Teatrının səhnəsində yaratdığı Tolstoyun "Canlı Meyit"ində Fyodor Protasov, Cavidin "Xəyyam"ında Xəyyam, Vurğunun "İnsan"ında Şahbaz, Qorkinin "Meşşanları"nda Teterev, 1959-cu ildə "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Onu bağışlamaq olarmı?" bədii filmində yaratdığı Qaya obrazı yüksək ifaçılıq nümunəsi kimi bu gün də xalqın və teatrsevərlərin yaddaşındadır.

O, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu", Cakomo Puççininin "Toska", Cahangir Cahangirovun "Azad" operalarına, Azərbaycan Dövlət Rus Dram Teatrında Maksim Qorkinin "Həyatın dibində", Mixail Şatrovun "Mənim ümidlərim" əsərlərinə maraqlı quruluş verib.

Bildirilib ki, Mehdi Məmmədov Azərbaycanda teatr səhnəsindəki məhsuldar fəaliyyəti ilə paralel olaraq 1945-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət İncəsənət İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olub. Görkəmli rejissor bu sahədə bir neçə sənətkar nəslinin yetişməsində yaxından iştirak edib. Onun müəllifi olduğu "Azərbaycan dramaturgiyasının estetik problemləri", "Teatrlar. Aktyorlar. Tamaşalar", "Rejissor sənəti", "Estetika haqqında söhbətlər", "Teatr düşüncələri", "Onun sənət ulduzu", "Moskva Akademik Bədaye Teatrı" kitabları bu gün də yeni nəsillərin yetişməsində mühüm elmi vəsait kimi dəyərləndirilməkdədir.

Diqqətə çatdırılıb ki, Azərbaycan teatr sənətində qazandığı uğurlara görə Mehdi Məmmədov 1949-cu ildə əməkdar incəsənət xadimi, 1958-ci ildə xalq artisti, 1974-cü ildə SSRİ xalq artisti fəxri adlarına layiq görülüb.

Sonra Mehdi Məmmədovun quruluş verdiyi və oynadığı tamaşalardan parçalar təqdim olunub.

# 9 yaşlı çempion

Karateçi Rafael Zeynalovla bu günlərdə Bakıda keçirilən beynəlxalq turnirdə tanış olduq. 9 yaşlı bu oğlan karatenin WKF növü üzrə bütün rəqiblərinə qalib gələrək qızıl medal qazandı. Üstəlik, ən yaxşı texniki fəndlərə görə Dünya Kubokuna layiq görüldü.



Rafael Nəsimi rayonundakı 14 saylı məktəbin 4-cü sinfində təhsil alır. Dərslərində qabaqcıldır, sinfin yaxşı oxuyanları sırasındadır. Eyni zamanda idman onun həyatının ayrılmaz hissəsidir. Düzdür, yaşı az olduğundan idman karyerası hələlik qısadır. Cəmi bir il yarımdır karate ilə məşğuldur. İlk dəfə Sumqayıtda keçirilən açıq turnirin, daha sonra Bakıda klublararası turnirin qalibi olub. Beləcə ölkə miqyaslı turnirlərdə çempionluğun sevincini yaşayan balaca karateçi beynəlxalq yarışlarda ilk dəfə qüvvəsini ötən ilin dekabrında Bakıda keçirilən Dünya Kuboku yarışında sınayıb. Bu, onun beynəlxalq turnirlərdə ilk sınağı olsa da, döyüşləri pis alınmayıb. Gümüş medal qazanan Rafael daha sonra İranda keçirilən II Beynəlxalq İdman Olimpiadasında da eyni nəticəni göstərib. Bu ilin martında karatenin "shi to ryu hayashi" versiyası üzrə 6 ölkənin idmançılarının iştirakı ilə keçirilən beynəlxalq turnirdən də qızıl medalla ayrılıb.

Ümumiyyətlə, Rafaelin nailiyyətləri olduqca qürurvericidir. Balaca karateçi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunmuş yarışda, Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar "Təhsil" RİM tərəfindən təşkil olunan turnirdə, Qara və Xəzər dənizi hövzəsi ölkələrinin idmançılarının iştirakı ilə keçirilən beynəlxalq turnirdə, Milli Qəhrəman Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq yarışda, Bakı açıq birinciliyində, keçmiş sovet respublikalarında karatenin yaranmasının 40 illik yubileyinə həsr olunan "Baku Open" beynəlxalq turnirində qızıl medallara layiq görülüb. Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş turnirdə 10-11 yaşlı idmançılar arasında mübarizə apararaq bürünc medal qazanıb.

Bu ilin noyabrında isə Rafael Rusiyanın Oryol şəhərində keçirilən Avropa çempionatında çıxış edib. Adından da göründüyü kimi, olduqca mötəbər olan bu çempionatda idmançımız inamla mübarizə aparıb. Rəqiblərin titullu və təcrübəli karateçilər olmasına baxmayaraq, Rafael qaliblər sırasına düşməyi bacarıb və vətənə bürünc medalla dönüb.

Söhbət zamanı məlum oldu ki, Rafael Zeynalov karatenin sirlərini Bakıdakı "Qara Qaplan" idman klubunda öyrənir. 26 ildir fəaliyyət göstərən bu klub Azərbaycanda karatenin inkişafına böyük töhfələr verib. Atası Kamal Zeynalov bildirir ki, oğlu idmana başlayanda inanmazdı ki, qısa müddətdə belə uğur qazanacaq. Onun sözlərinə görə, Rafaelin perspektivli idmançı kimi yetişməyində məşqçiləri Əli Rəcəbovun və Orxan Şabanovun əməyi böyükdür. Balaca çempionun xarici səfərlərdə iştirakına görə isə atası "İvy Group" şirkətinə minnətdarlığını bildirdi.

Rafaelin kumiri isə tanınmış karateçi Rafael Ağayevdir. İnanır ki, mütləq adaşı kimi daha böyük qələbələrə imza atacaq, beynəlxalq turnirlərdə həmişə üçrəngli bayrağımızı ucaldacaq.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən dəftərxana ləvazimatlarının və təsərrüfat mallarının iş və xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən, "ALFA LUX" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən təşviqat materialları və çap məhsullarının satın alınması ilə əlaqədar keçirilmiş açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Açıq tenderin nəticələri haqqında Tender komissiyasının qərarına əsasən, "BLESS YOU" MMC qalib elan edilmiş və MMC ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*


# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## BMT miqrasiya haqqında qlobal müqaviləni qəbul etdi



BMT Baş Assambleyasının iclasında 181 ölkənin səsi ilə miqrasiya haqqında qlobal müqavilə qəbul edilmişdir. Sənədin mətni iki il idi müzakirə olunurdu. ABŞ əsasən qaçqınların qəbulu üzrə öhdəliklərin ədalətli bölünməsini dəstəkləyən müqaviləyə qarşı çıxmışdır. Vaşinqtonun fikrincə, müqavilə dövlətlərin suverenlik hüququna hörmət etmir. Macarıstan ABŞ-a qoşularaq sazişin əleyhinə səs vermişdir. Dominikan Respublikası, Eritreya və Liviya bitərəf qalmışlar. Bu barədə TRT telekanalı xəbər verir.

Miqrasiya haqqında qlobal müqavilə ən çox miqrant qəbul edən ölkələrin vəziyyətini yüngülləşdirməli, qaçqınların məskunlaşdıqları ölkələrdə özlərini dolandırmağı təmin etməli, onların üçüncü ölkələrə köçmək imkanlarını genişləndirməli və vətənə qayıtmaları üçün şərait yaratmalıdır.

BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının məlumatına görə, hazırda dünyada 25,4 milyon nəfərdən çox adam miqrant statusuna malikdir. Onların üçdə ikisi 10 ölkənin ərazisində məskunlaşmışdır. Türkiyə qaçqın qəbul edən ölkələr siyahısında birinci yeri tutur. Hazırda bu ölkədə 3,5 milyon nəfərdən çox miqrant sığınacaq tapmışdır.

## Yəməndə atəşkəs rejimi qüvvəyə mindi



Yəmənin Hodeydə şəhərində barışıq elan olunmuşdur. Müvafiq razılaşma BMT-nin himayəçiliyi ilə İsveçdə keçirilmiş danışıqlarda əldə olunmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Bundan əvvəl BMT-nin Baş katibi Antoniu Quterriş bildirmişdi ki, münaqişə tərəfləri silahlı birləşmələrin Hodeydə limanından çıxarılması barədə saziş əldə etmişlər. İsveçdə həmçinin əsirlərin və məhbusların azad olunması, Hodeydə limanı uğrunda döyüşlər, Yəmən Mərkəzi Bankında vəziyyət, Təizin blokadası, humanitar yardımın çatdırılması və Səna aeroportu ətrafında vəziyyət müzakirə edilmişdir.

## İlin 11 ayında dünyada 80 jurnalist həlak olub



Cari ilin yanvar ayından bəri dünyada azı 80 jurnalist peşəkar fəaliyyəti ilə əlaqədar öldürülmüşdür. Bu barədə "Sərhədsiz reportyorlar" hüquq-müdafiə təşkilatının mətbuat azadlığı haqqında illik hesabatında məlumat verilmişdir.

Ölənlərin yarıdan çoxu beş dövlətin - Əfqanıstan (15 nəfər), Suriya (11), Meksika (9), Yəmən (8) və Hindistanın (6) payına düşür. Beynəlxalq təşkilatın mətbuat üçün məlumatında qeyd olunur ki, iyun ayında ABŞ-da "Capital Gazette" qəzetinin redaksiyasına hücum nəticəsində də altı jurnalist həlak olmuşdur.

Mülki jurnalistikanın nümayəndələri arasında öldürülənlərin sayı 2017-ci illə müqayisədə təxminən iki dəfə artmışdır.

Bundan əlavə, hazırda dünyada 348 jurnalist həbsdədir. Onların yarıdan çoxu beş ölkənin - Çin, Misir, Türkiyə, İran və Səudiyyə Ərəbistanının həbsxanalarındadır.

Xatırladaq ki, "Time" jurnalı bir qrup jurnalisti "2018-ci ilin adamı" elan etmişdir. Onlar oktyabrda qətlə yetirilmiş Camal Qaşıqçı, "Capital Gazette" qəzetinin əməkdaşları, habelə filippinli Mariya Ressa və "Röyter" agentliyinin Myanmadakı müxbirləri Va Lon və Kya So Oodur.

## Nigeriyada fermerlərlə çobanlar arasında münaqişədə 3641 nəfər ölüb

Beynəlxalq Amnistiya Təşkilatının hazırladığı "Ölümcül nəticə: Nigeriyada üç ildir fermerlərlə çobanlar arasında davam edən qanlı toqquşmalar" hesabatında qeyd edilir ki, son illər Nigeriyanın bəzi rayonlarında yaşayan fermerlərlə çobanlar arasında baş vermiş toqquşmalar nəticəsində "Boko Haram" üzvlərinin hücumu nəticəsində ölənlərdən daha çox adam həlak olmuşdur.

Sənəddə deyilir ki, adıçəkilən qruplar arasında 2016-cı ilin yanvarından bəri qeydə alınmış toqquşmalarda Adamava, Benue, Kaduna, Tamara və Zamfara ştatlarında 3641 nəfər həlak olmuşdur. Nigeriyanın Heyvandarlıq İttifaqının baş katibi (MACBAN) Otman Ngelzarma bildirmişdir ki, bir çox hallarda zorakılıq aktlarının nə çobanlara, nə də fermerlərə aidiyyəti olur. Sadəcə, kimlərsə vəziyyətdən öz maraqları naminə istifadə edir və bu toqquşmalardan faydalanır.

"Plateau" fermerlər ittifaqının nümayəndəsi Zanqo demişdir ki, regionda toqquşmalar təşkil edən silahlı şəxslərin yerli sakinlərə heç bir aidiyyəti yoxdur. Həmin şəxslər, sadəcə, məsuliyyəti fermerlərin və çobanların üzərinə qoyaraq onları bir-biri ilə toqquşdurmaq istəyirlər.

## Mumbaidə xəstəxana yandı

Hindistanın Mumbai şəhərindəki xəstəxanaların birində baş vermiş güclü yanğın nəticəsində 8 nəfər həlak olmuş, 145 nəfər yaralanmışdır. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, ölənlər arasında altı aylıq uşaq da var. 28 yaralının vəziyyəti ağırdır.

Alov xəstəxananın beşmərtəbəli binasının əksər tikililərini bürümüş və hadisə yerinə gələn briqadalar uzun müddət yanğını söndürə bilməmişdir. Paralel olaraq təcili xidmətlərin əməkdaşları xəstələri xilas etməyə başlamışlar.

Yanğının səbəbi hələ ki açıqlanmır. İlkin versiyaya görə, yanğın havalandırma sistemində qısa qapanmadan baş verə bilərdi.

Azercell

## abunəçilərinin nəzərinə

- 23.01.2019-cu il tarixdən etibarən, "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün təqdim edilən Simkredit xidmətində 1 AZN (1 AZN kredit məbləği, 0,20 AZN xidmət haqqı), 2 AZN (2 AZN kredit məbləği, 0,40 AZN xidmət haqqı) və 3 AZN (3 AZN kredit məbləği, 0,60 AZN xidmət haqqı) kredit məbləğlərindən yararlanmaq mümkün olacaq.
- Eyni zamanda, Simkredit xidməti ilə əlaqədar 9150, 9250, 9290, 9600 və 9155 qısa nömrələrinə göndərilən SMS-lərə görə və *155#YES, *150#YES, *250#YES, *290#YES, *200#YES USSD kodlardan istifadəyə görə 0,05 AZN (ƏDV daxil) məbləğində xidmət haqqı tətbiq ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, Simkredit xidmətindən istifadə şərtləri, sifarişi və tarifləri barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


*Təkrar*

## "Azərişıq"ASC müxtəlif elektrik sazlama cihazları və cihaz təmizləmə mayelərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT-1**
Müxtəlif elektrik sazlama cihazları və cihaz təmizləmə mayelərinin satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: № AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 yanvar 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21 yanvar 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 yanvar 2019-cu il tarixdə saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi

### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi öz tabeliyindəki respublikanın şəhər və rayonlarında yerləşən mühafizəyə ehtiyacı olan müəssisələrdə gözətçi və patrul xidmətlərinin satın alınması üzrə açıq tender elan edir.

Tenderdə gözətçi və patrul xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 212, tel.: +99412 4902408, əlavə 103; faks: +99412 4903359) ünvanından ala bilərlər:

**Emitent**
Dövlət Xəzinədarlıq Agentliyi
Bank kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. bik: CTREAZ22
**Alan**
Əmlak Məsələləri Dövlət Komitəsi
VÖEN: 2000015631
H/H: AZ84CTRE00000000000002647970
Büdcə səviyyəsinin kodu -7
Büdcə təsnifatının kodu -142340

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 2 (iki) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*
5. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış.*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış.*
7. *İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri.*
8. *Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.*
9. *İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər.*
10. *Digər sənədlər (tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində "Əsli" və "Surəti" yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 12 (on iki) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- *iddiaçının bu sahədəki iş təcrübəsi;*
- *iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;*
- *görüləcək işlərin dəyəri.*

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 11 yanvar 2019-cu il tarixə qədər (saat 17:00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 22 yanvar 2019-cu il tarixə qədər (saat 17:00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 212, əlaqələndirici şəxs - Zəka İskəndərbəyli) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 23 yanvar 2019-cu il tarixdə (saat 11:00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

*Təkrar*

## "Bakı Metropoliteni" QSC "Xocasən" elektrik deposu sahəsində "Biləcəri-Heybət" mənzilindən "Xocasən" elektrik deposuna qədər tikintisi nəzərdə tutulan dəmir yolu ilə kəsişən qaz kəmərinin köçürülməsi işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-nin "Xocasən" elektrik deposu sahəsində "Biləcəri-Heybət" mənzilindən "Xocasən" elektrik deposuna qədər tikintisi nəzərdə tutulan dəmir yolu ilə kəsişən qaz kəmərinin köçürülməsi işlərinin satın alınması.**

**İştirak haqqı - 150 manat.**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 yanvar 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 yanvar 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərsu" ASC yuyucu və təmizləyici vasitələrin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs Hikmət Qasımovdan, 431-47-67/2249) ala bilərlər.

**Tender 1 (bir) LOT üzrə keçirilir.**
**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİIBAZ2X**
**H/h: AZ65AİIB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24 yanvar 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **25 yanvar 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20



Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.12.2018-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 12.12.2018-ci il tarixdə keçirilmiş 1 LOT üzrə "Bakı Metropoliteni" QSC üçün Avtomatik yanğın xəbərverici sistemlər üçün lazım olan avadanlıq və materialların "Açıq Tender" üsulu ilə satın alınmasına dair müsabiqə nəticələri Dövlət Satınalmaları haqqında Azərbaycan Respublikasının Qanunun 11-ci maddəsinin 11.2 bəndinə əsasən bütün iddiaçıların tender təklifləri tenderin əsas şərtlər toplusuna uyğun olmadığına görə ləğv olunur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Nazirlər Kabineti Aparatı Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin müdir müavini İlyas Həsənova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları İldırım Əhmədova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şaiq Əfəndiyev professor Əvəz Ələkbərova əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin müdir müavini İlyas Həsənova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Lamiyə Zeynalovaya əzizi

**SABİR HACILININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin professor-müəllim heyəti Tətbiqi riyaziyyat kafedrasının professoru İbrahim Nəbiyevə anası

**DİLƏFRUZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bərdə Rayon Məhkəməsinin sədri Məhərrəm Allahverdiyev və məhkəmənin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8432
Sifariş 3824
Qiyməti 40 qəpik